www.musavat.com
# YENİ MÜSAVAT
Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 11 may 2016-cı il Çərşənbə № 101 (6422) Qiymətі 60 qəpik

Xəbər

**Bakıda kişi arvadını, sonra özünü öldürdü**

yazısı səh.14-də

Gündəm

**ABŞ-dan Ermənistana zərbə: "Ərazilər Azərbaycanın nəzarətinə qaytarılacaq"**



22 illik atəşkəs müddətində masa üzərinə çıxarılan təkliflər: onların hansı Azərbaycanın maraqlarına cavab verir?

yazısı səh.9-da

**Putin Bakıya mayın sonlarında gələcək**

yazısı səh.5-də

**Müsavat rəhbərliyindən "gedənlərə yaxşı yol" mesajı**

yazısı səh.7-də

**Dollar kreditlərinə qadağa uzun müddət qüvvədə qalacaq**

yazısı səh.3-də

**AXCP qeydiyyata alınmaya bilər**

yazısı səh.7-də

**"Formula 1" hazırlıqları: hotellər dolub, sakinlər evlərini kirayə verir**

yazısı səh.10-da

**İqbal Ağazadə seçkilərdə qarşılaşdığı əngəllərdən danışdı**

yazısı səh.7-də

**İslahatlar paketinin içində baş nazir dəyişikliyi-yenə Rasi-zadə...**

yazısı səh.6-da

**AŞ PA-da Azərbaycanla bağlı müzakirələr olacaq**

yazısı səh.2-də

**Bank müsadirə etdiyi villanı satışa çıxardı-700 min manat**

yazısı səh.10-da

**Ölkənin siyasi afişası-müxalifət ayın sonuna hazırlaşır...**

yazısı səh.6-da

**Həbsxanadakı şou-biznes məşhurları-adlar**

yazısı səh.15-də

## Türkiyə siyasətində aysberqin görünməyən tərəfi

# DAVUDOĞLUNUN "BAŞI"NI PUTİN İSTƏYİB - ŞOK İDDİA

Baş nazirin istefasını zəruri edən ilginc səbəblər barədə; Əhməd Davudoğlunun siyasətdən də getmək niyyəti əlavə suallar doğurub; Ankara-Moskva münasibətlərində ılıqlaşma gözlənilirmi?..




yazısı səh.8-də

## Şeyxlə Səudiyyə arasında konflikt-Həcc ziyarəti kvotasının gizlinləri

Azərbaycandan İslamın əsas ziyarəti üçün yerlər son 7 ildə 6 dəfə azalıb, qərar Bakıdan, yoxsa ər-Riyaddan verilib?

yazısı səh.12-də




**Nazir supermarket rəhbərlərinə "yox" dedi**

yazısı səh.3-də



**Mərhum prezident Heydər Əliyevin 93 yaşı ölkə boyu qeyd edildi**

yazısı səh.5-də



*"Qatarda" sağ qalan sonuncu adam:*

**"17 ildir təkəm..."**

yazısı səh.11-də



## Prezidentdən twitter mesajları

**Azərbaycan prezidenti İlham Əliyevə məxsus twitter hesabından (@azpresident) Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair qısa mesajlar paylaşılıb.**

Prezident İ.Əliyev yazıb: "Azərbaycan faşizm üzərində Qələbənin əldə olunmasında böyük rol oynamış, Azərbaycan xalqı müharibə illərində qəhrəmanlıq göstərmişdir".

Ölkə başçısı Heydər Əliyevin Azərbaycan tarixində müstəsna xidmətlər göstərdiyini qeyd edib.

İ.Əliyev onu da əlavə edib ki, bu gün Azərbaycan müstəqil dövlət kimi özünü dünya miqyasında təsdiqləmiş və inkişaf yolu ilə inamla irəliləyən ölkədir: "Azərbaycanda həyata keçirilən siyasətin başlıca məqsədi müstəqilliyin möhkəmlənməsidir. Biz müasir dövrün bütün çağırışlarına hazırıq".

Bu gün həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, qayğıları və təhlükəsizliyinin dayandığını vurğulayan dövlət başçısı "Azərbaycanda bütün uğurlar ancaq xalqın zəhməti hesabına, düşünülmüş siyasət nəticəsində əldə edilmişdir" - deyə əlavə edib.

Prezident bildirib ki, Azərbaycan bundan sonra da inkişaf yolu ilə gedəcək, ölkə qarşısında duran bütün məsələlər öz həllini tapır və tapacaqdır.

Ermənistanla yaşanan münaqişəyə də toxunan ölkə başçısı vurğulayıb ki, Dağlıq Qarabağda separatçı meyillər süni şəkildə ortaya atılmış təxribat olmuşdur. İndi də Azərbaycan bu təxribatın acı nəticələrini yaşayır.

Sonda prezident İ.Əliyev 2016-cı ilin aprelində Azərbaycan ordusunun əks-hücumunun Azərbaycan dövlətinin və Silahlı Qüvvələrinin gücünü, xalqın birliyini, həmrəyliyini və vətənpərvərliyini nümayiş etdirdiyini qeyd edib: "Azərbaycanın qarşısında duran əsas vəzifə beynəlxalq hüquq əsasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir".

## Bu il iqtidar -müxalifət dialoqu keçiriləcəkmi?




**İqtidar-müxalifət dialoqunun zəruriliyi milli birliyin əldə edilməsi, cəmiyyətdəki gərginliyin azaldılması istiqamətində həyata keçirilməsi gərəkən addımlardan biridir. Maraqlıdır, bəs ötən il olduğu kimi, bu il də iqtidar və müxalifət arasında belə bir dialoq keçiriləcəkmi?**

Məsələ ilə bağlı moderator.az-a açıqlama verən Siyavuş Novruzov bundan öncə siyasi partiyaların onları narahat edən, düşündürən məsələlərlə bağlı öz mövqelərini ortaya qoymasının vacibliyini vurğulayıb:

"Azərbaycanda həmişə iqtidar-müxalifət dialoqu olub. Keçən il belə bir dialoq keçirilib. Bu il də bütün təşkilatlar, siyasi partiyalar onları düşündürən, narahat edən məsələlərlə bağlı öz rəsmi mövqelərini yazıb yollayandan sonra onlar müəyyən ardıcıllıqla müzakirə olunacaq".

## Rus pilotu öldürən türk bəraət aldı

**Türkiyə Prokurorluğu Suriya sərhədində rusiyalı pilotun öldürülməsində iştirak edən Alparslan Çelikə bəraət verib. Modern.az Türkiyə KİV-nə istinadən xəbər verir ki, onun ittiham olunduğu "qətl" maddəsi üzrə təqsiri sübuta yetirilməyib.**

Bundan başqa, onun qanunsuz olaraq odlu silah saxlaması və daşınması ittihamı üzrə də günahsız olduğuna qərar verilib.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

# Müdafiə Nazirliyi Nəcməddin Sadıkovla bağlı açıqlama yaydı

**Azərbaycan Müdafiə Nazirliyi Silahlı Qüvvələrin Baş Qərargah rəisi Nəcməddin Sadıkovun tutduğu vəzifədən azad edilməsi barədə yayılan məlumatlara münasibət bildirib.**



Nazirliyin mətbuat xidmətindən virtualaz.org-a bildiriblər ki, bəzi üzdəniraq saytlarda orduya qara yaxmaq, böhtan xarakterli və düşmən dəyirmanına su tökmək məqsədi daşıyan yazılar dərc olunub: "Ordumuzun düşmənə qarşı həyata keçirdiyi uğurlu əks-həmlə əməliyyatları, torpaqlarımızın azad edilməsi istiqamətində fəaliyyəti Azərbaycan prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən qiymətləndirilib. Bu yüksək qiymətdə hər kəsin, zabitlərin, gizirlərin, müddətdən artıq xidmət edənlərin və əsgərlərin, bir sözlə, ordumuzun hər bir üzvünün payı var. Mətbuatda bu cür yazılar yaymaqla ermənipərəst qüvvələr özlərinin iç üzünü açıb göstərirlər. Onlardan fərqli olaraq, Silahlı Qüvvələrimizin rəhbərliyi və şəxsi heyəti gecə-gündüz ancaq bir məqsəd - torpaqlarımızın işğaldan azad edilməsi və ölkəmizin ərazi bütövlüyünün təmin olunması istiqamətində çalışır. Silahlı Qüvvələrimizin şəxsi heyətinin döyüş və mənəvi-psixoloji ruhu yüksəkdir. Düşmən dəyirmanına su tökməklə məşğul olanlar heç vaxt öz çirkin niyyətlərinə çata bilməyəcəklər. Ordumuz hər an xalqımızın tələbi və Ali Baş Komandanın əmri ilə torpaqlarımızı azad etməyə hazırdır və qadirdir".

**Qeyd edək ki, Azərbaycanda bəzi saytlar N. Sadıkovun müharibə dövründə taktiki səhvlərə yol verdiyi üçün tutduğu vəzifədən azad edilməsi barədə məlumat yayıb.**



## Fuad Qəhrəmanlının şikayəti təmin edilmədi

**Bakı Apelyasiya Məhkəməsində AXCP sədrinin müavini Fuad Qəhrəmanlı barəsində seçilmiş həbs-qətimkan tədbirinin müddətinin uzadılmasına dair məhkəmə qərarından verilən şikayətinə baxılıb.**

Lent.az xəbər verir ki, hakim Mirzəli Abbasovun sədrliyi ilə keçirilən prosesdə Nəsimi Rayon Məhkəməsinin qərarı dəyişdirilmədən qüvvədə saxlanılıb, F.Qəhrəmanlının apelyasiya şikayəti təmin edilməyib.

Qeyd edək ki, AXCP sədrinin müavini Fuad Qəhrəmanlı dekabrın 8-də Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində dindirilib. Sonra İstintaq İdarəsi F.Qəhrəmanlı barəsində həbs-qətimkan tədbirinin seçilməsi üçün Nəsimi Rayon Məhkəməsinə təqdimat verib. Məhkəmənin qərarı ilə onun barəsində 3 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. F.Qəhrəmanlıya qarşı Cinayət Məcəlləsinin 281.1 (dövlət hakimiyyəti əleyhinə çağırışlar etmə), 283.2.1 (dini, irqi, sosial nifrət aşılayan çağırışlar etmə) maddələri ilə ittiham irəli sürülüb.

Xatırladaq ki, mayın 4-də Nəsimi Rayon Məhkəməsində F.Qəhrəmanlı barəsində seçilmiş həbs-qətimkan tədbirinin müddəti 2 ay artırılıb.



## Barak Obama Xirosimaya gedəcək

**ABŞ prezidenti Barak Obama mayın 27-də Yaponiyanın Xirosima şəhərinə səfər edəcək. Xatırladaq ki, bu şəhər 1945-ci ildə atom bombardmanına məruz qalıb. Virtualaz.org bildirir ki, bu məlumatı Ağ Evdən veriblər.**

"Prezident Yaponiya baş naziri Abe ilə Xirosimaya tarixi səfər edəcək ki, dünyada nüvə silahı olmadan sülhün və təhlükəsizliyin tərəfdarı olduğunu bir daha qeyd etsin", - məlumatda belə deyilir.

## Bakıda Dünya Azərbaycanlılarının IV Qurultayı keçiriləcək

**İyun ayının 3-4-də paytaxt Bakıda Dünya Azərbaycanlılarının IV Qurultayı keçiriləcək. Dünya Azərbaycanlılarının IV Qurultayına hazırlıq məqsədilə Diasporla İş üzrə Dövlət Komitəsinin nəzdində təşkilat komitəsi yaradılıb.**

Diasporla İş üzrə Dövlət Komitəsindən modern.az-a verilən məlumata görə, qurultayda dünyanın 49 ölkəsindən 500-dən çox Azərbaycan diaspor təşkilatlarının nümayəndələrinin, habelə Azərbaycana dost münasibəti ilə tanınan xarici ölkələrin nüfuzlu siyasətçilərin, ictimai xadimlərin və elm adamlarından ibarət 50 nəfərə yaxın qonağın iştirakı gözlənilir.

Toplantıda Dünya Azərbaycanlılarının III Qurultayından keçən dövr ərzində görülmüş işlər müzakirə olunacaq, həmçinin müasir dövrdə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində qarşıda duran vəzifələr, təbliğat işində müasir metodların və informasiya texnologiyalarının tətbiqi, soydaşlarımızın hüquq və azadlıqlarının qorunması istiqamətində mövcud olan problemlər və onların həlli yolları, gənclərin diaspor hərəkatına cəlb olunması, lobbi quruculuğu və digər bir sıra mühüm məsələlər üzrə fikir mübadiləsi aparılacaq. Qurultayda qeyd olunan mövzuların müzakirəsi üçün panellərin təşkili, eləcə də Azərbaycan Respublikasının müvafiq dövlət orqanlarının nümayəndələri ilə görüşlərin keçirilməsi də gözlənilir.

Qurultayda diaspor təşkilatlarının qarşısında duran vəzifələrin dəqiq müəyyən edilməsi, diaspor təşkilatlarının fəaliyyət strategiyasının müasir reallıqlara uyğun şəkildə qurulması, həmçinin Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində görüləcək işlərlə bağlı müvafiq məsləhətləşmələr əsasında vahid təbliğat konsepsiyasının hazırlanması nəzərdə tutulur.



## AŞPA Monitorinq Komitəsində Azərbaycanla bağlı müzakirə keçiriləcək

**Mayın 23-də AŞ PA Monitorinq Komitəsində Azərbaycanla bağlı müzakirə keçiriləcək.**

APA-nın məlumatına görə, komitənin Azərbaycan üzrə həmməruzəçisi Stefan Şennak 5-9 aprel tarixlərində Azərbaycana faktaraşdırıcı səfərinin yekunları ilə bağlı çıxış edəcək.

Xatırladaq ki, S. Şennak Azərbaycan üzrə həmməruzəçi vəzifəsinə ötən il dekabrın 9-da təyin olunub.

## Qəbul qaydalarında heç bir dəyişiklik olmayacaq

**"Hazırda biz qəbul imtahanlarına hazırlaşırıq. Bütün qəbul qaydaları yanvar ayında çap olunub. Qəbul qaydalarına əsasən imtahanlar aparılacaq".**

APA-nın xəbərinə görə, bunu Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, bu il üçün qəbul qaydalarında heç bir dəyişiklik olmayacaq: "İmtahanların keçirilmə və başlama tarixləri TQDK-nın rəsmi səhifəsində yerləşdirilib".

M. Abbaszadə onu da əlavə edib ki, V ixtisas qrupuna daxil olan ixtisaslar sırf qabiliyyət tələb edənlərdir: "V qrup ixtisaslarının müsabiqəsində iştirak etmək üçün bulki məzunlar buraxılış imtahanlarını verməli, əvvəlki illərin məzunları isə buraxılış imtahanları səviyyəsində olan imtahanları verir və ümumi müsabiqəyə qoşulurlar".

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 101 (6422) 11 may 2016

**10 may mərhum prezident Heydər Əliyevin doğum günü münasibətilə onun Fəxri Xiyabandakı məzarını ziyarət edən məmurlardan bəziləri jurnalistlərin suallarını cavablandırıblar. Musavat.com-un məlumatına görə, Mərkəzi Bankın sədri Elman Rüstəmov hər kəsi maraqlandıran bir mövzudan - manatın məzənnəsindən danışıb.**

# Nazir supermarket rəhbərlərinə "yox" dedi

## Məmurlar ölkədəki iqtisadi yeniliklərdən danışdılar





Baş bankir bildirib ki, üzən məzənnəyə keçdikdən sonra Mərkəzi Bankın əsas əməliyyat hədəfi pul kütləsinin proqnozlaşdırılmasıdır: "Hansı ki, bizə imkan verir ki, həm inflyasiyaya, həm də manatın məzənnəsinə pul kütləsi vasitəsilə təsir göstərək. Bizim ilin sonuna həm inflyasiya və maliyyə sabitliyi, həm də ümumilikdə makroiqtisadi sahə üzrə çox aydın hədəflərimiz var".

**O, həmçinin qeyd edib ki, Azərbaycan Mərkəzi Bankı tərəfindən bank sektoruna verilən kreditlərin ümumi həcmi təxminən 1 milyard manat təşkil edir:** "Kreditlərin əhəmiyyətli hissəsi dövlət zəmanəti ilə verilib. Bu kreditlər əsasən sosial əhəmiyyətli layihələr üçün verilən kreditlərdir".

**Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Ramiz Həsənov isə jurnalistlərə açıqlamasında bildirib ki, kütləvi yoxlamalar dayandırılıb, monitorinqlər isə davam edir:** "Bəzi iş adamlarından məhsulların keyfiyyəti ilə bağlı bizə şikayətlər daxil olur. Biz də bunu araşdırıb, mətbuata məlumat veririk. Yanacaqdoldurma məntəqələri, ərzaq məhsullarının istehsalı və sairə sahələrlə bağlı mən demişdim. Şikayətlər hər bir sahədən olur".

**Hesablama Palatasının yoxlamalarında ən çox qanun pozuntusuna yol verən qurum kimi rəhbəri olduğu komitənin adının çəkilməsi barədə məlumatlara münasibət bildirən R. Həsənov bunları deyib:** "Hesablama Palatası bizdə 2014-cü ildə yoxlama aparıb. O zaman heç bir pozuntu qeydə alınmayıb. Mən bilmirəm bu məlumatlar harada gedib, belə bir hal yoxdur".

**"Komitə yoxlamaları bərpa edəcəkmi" sualına cavab olaraq qurum sədri yoxlamaların dayandırılmadığını açıqlayıb:** "Biz yalnız kütləvi formada olan yoxlamaları dayandırmışıq, monitorinqlər aparırıq. Müəssisəni narahat etmədən bazarda monitorinq aparıb, olan nöqsanları aşkarlayıb, müvafiq tədbirlər görürük".

**Vergilər naziri Fazil Məmmədov isə söyləyib ki, supermarketlər Əlavə Dəyər Vergisindən (ƏDV) azad olunmayacaq:** "Supermarketlərin ƏDV-dən azad olunmasından söhbət gedə bilməz. Nəyə görə marketlər ƏDV-dən azad olunmalıdır ki? Kənd təsərrüfatı məhsullarının 95-98 faizi bazarlarda, yerdə qalan hissəsi, yəni 1-2 faiz marketlərdə satılır. Bazarlarda isə nə ƏDV var, nə də sadələşdirilmiş vergi. Ona görə marketlərin ƏDV-dən azad olunmasından söhbət gedə bilməz. Bu, mümkün deyil".

**O, həmçinin qeyd edib ki, Azərbaycanda fəaliyyət göstərən bank təşkilatları mənfəət vergisindən azad edilə bilər:** "Banklar belə bir məsələ qaldırıb. Bu təklifə hökumətdə baxıla bilər".

**Öz növbəsində Nəzarət Palatasının Direktorlar Şurasının sədri Rüfət Aslanlı kreditlərlə bağlı, o cümlədən "Bank Standart"la bağlı yayılan məlumatlara aydınlıq gətirib:** "Son bir il ərzində kreditlərin həm müddəti, həm də faiz dərəcələri aşağı salınıb. Devalvasiyadan sonra banklar vaxtı keçmiş kreditlərin böyük hissəsini faizlər üzrə güzəştə gediblər, müddətləri azaldıblar. Banklarda əlavə resurslar formalaşdıqca, əlavə güzəştlər də tətbiq oluna bilər. Bu, banklarla müştərilər arasında olan münasibətlərdir. "Bank Standart"da yaranan problemlərə gəlincə, deyə bilərik ki, dövlət həmin bankın idarəçiliyini öz üzərinə götürüb. Dövlət bankın arxasında dayanır ki, fiziki və hüquqi şəxslərin banklarda olan əmanətləri itirilməsin. Hazırda müvəqqəti inzibatçılıq bankın sağlamlaşdırılması ilə məşğuldur. Bankın bağlanması və ya ləğv olunması ilə bağlı səsləndirilən fikirlərin əsası yoxdur. Belə bir hal gözlənilmir. Həmçinin bank müflis də olmayıb".

❑ **Əli RAİS**



# Dollar kreditlərinə qadağa uzun müddət qüvvədə qalacaq

## **Rüfət Aslanlı:** "10 min dollara qədər olan kreditlərə güzəştlər edilməsi məsələsinə də baxıla bilər"

## **Əkrəm Həsənov:** "Palata tezliklə səlahiyyətlərinin legitimliyinə nail olmalıdır"

**Maliyyə Bazarlarına Nəzarət Palatasının (MBNP) Direktorlar Şurasının sədri Rüfət Aslanlı yeni kreditləşmə modelinin detallarını açıqlayıb. O bildirib ki, yeni kreditləşmə modelinə əsasən xarici valyutada verilən istehlak kreditlərinin verilməsinə olan qadağa qüvvədə qalmaqdadır: "Burada iki istisna var. Birinci istisna odur ki, əgər müştəri əvvəllər xarici valyuta ilə kredit alıbsa və bu gün həmin kreditlərin vaxtı bitibsə və ya vaxtı tamamlanmayıb, lakin banklar bu kreditləri restrukturizasiya edirlərsə, belə müqavilələrin imzalanmasına yol verilir. Bu, daha çox əhalinin kredit yükünün və ona xidmət etmək imkanlarının sadələşdirilməsi və sağlamlaşdırılması məqsədini daşıyır. İkincisi, əgər kiminsə xarici valyutada gəlirləri və ya xarici valyutada bankda depoziti varsa və bu depoziti girov qoyaraq xarici valyutada borc almaq istəyirsə, belə kreditlərin də verilməsinə icazə verilir. Yerdə qalan hallarda xarici valyutada istehlak kreditlərinin verilməsinə qoyulan qadağa qüvvədə qalır".**



APA-nın xəbərinə görə, o əlavə edib ki, xarici valyutada olan kreditlərin restrukturizasiyası və manat kreditləri ilə əlaqədar bir sıra yeni prudensial tələblər tətbiq olunub: "Bu tələblərin məqsədi odur ki, insanların aldığı kreditlər üzrə ümumi aylıq xərcləri onun ümumi aylıq gəlirlərin yarısından çox olmasın. İkincisi, həttə bu ümumi gəlirlərin xərclər çıxıldıqdan sonra yerdə qalan hissəsi yaşayış üçün yetərli olsun. Biz burada yaşayış minimumunu da nəzərə almışıq. Tələb odur ki, biz yaşayış minimumunun 3 mislini hədəf göstəricisi kimi götürmüşük. Yaşayış minimumunun 3 mislindən yuxarı gəlirləri öz öhdəsində qalan insanlar daha aşağı risk qrupuna aid edilir. Bununla əlaqədar biz banklardan daha az kapital, ehtiyat tələb edirik".

R.Aslanlının sözlərinə görə, son bir il ərzində kreditlərin həm müddəti, həm də faiz dərəcələri aşağı salınıb. O bildirib ki, devalvasiyadan sonra banklar vaxtı keçmiş kreditlərin böyük hissəsini faizlər üzrə güzəştə gediblər, müddətləri azaldıblar.

**R.Aslanlı həmçinin qeyd edib ki, hökumət likvidlik problemi olan banklara yardım edəcək:** "Palatanın problemli kreditləri artan və aktivlərinin keyfiyyəti pisləşən banklara münasibətdə ayrıca proqramı var. Banklar qısamüddətli likvidlik problemi ilə üzləşərsə, biz bu situasiyanı göz altına almışıq. Hökumət o banklara likvidliklə bağlı yardım etməyə planlaşdırır. Bilirsiniz ki, "Bank Standard" üzləşdiyi belə bir problemi həll etmək üçün çox təcili qaydada yardım olundu". O, həmçinin deyib ki, 10 min dollara qədər olan kreditlərə güzəştlər edilməsi məsələsinə də baxıla bilər. R.Aslanlı bildirib ki, Milli Məclisdə bu məsələyə baxılmasından xəbərsizdir. "Ancaq palataya bu barədə müraciət daxil olsa, bu məsələyə baxıla bilər".

**Ekspert Əkrəm Həsənov isə bildirib ki, hazırda Maliyyə Bazarlarına Nəzarət Palatasının qərarlarının hüquqi qüvvəsi yoxdur. Palatanın kreditləşdirməyə dair qərarını şərh edən Ə.Həsənov qeyd edib ki, qurumun kredit təşkilatları üçün hər hansı qayda qəbul etməyə hələlik heç bir səlahiyyəti yoxdur:** "Belə ki, palatanın nizamnaməsinin 2.2.3-cü və 5.3.2-ci bəndlərinə əsasən onun Direktorlar Şurası nəzarət etdiyi subyektlər üçün qaydaları normativ xarakterli akt formasında qəbul etməlidir. Həmin aktlar dövlət reyestrinə daxil edilməlidir. Lakin sözügedən reyestrdə palatanın hələlik bir qərarı belə yoxdur. Ümumiyyətlə, qərarları indiyədək dərc olunmayıb. İctimaiyyətə yalnız press-relizlər təqdim olunur. Ona görə ki, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun 4.1-ci maddəsində normativ xarakterli akt qəbul edə bilən qurumlar sadalanıb. Palatanın adı orada hələlik yoxdur. Olmayana qədər palata heç kəs üçün heç bir qayda müəyyən edə bilməz. Buna görə də palatanın indiyə qədər qəbul etdiyi qərarların məcburi hüquqi qüvvəsi yoxdur, uzaq başı tövsiyədir. İqtisadi cəhətdən palatanın qərarlarının əksəriyyətini məqsədəuyğun hesab edirəm. Amma banklar onlara riayət etməyə məcbur deyil və istisna deyil ki, sərf etmədikdə əməl etməyəcəklər də. Buna görə də palata tezliklə səlahiyyətlərinin legitimliyinə nail olmalıdır. Əks halda, bankların öhdəsindən gəlməyəcək".

**Ə.Həsənov musavat.com-a açıqlamasında bildirib ki, palatanın bir sıra qərarlar qəbul etməsi başadüşüləndir:** "Bunu başa düşmək olar ki, əks halda, fəaliyyət göstərə bilməz. Dollar kreditlərinə qadağa qoyulması hesab edirəm ki, uzunmüddətli olacaq. Bunu düzgün hesab edirəm. O ki, qaldı indiyədək olan kreditlərə, bankların bəziləri cüzi güzəştlər edirlər. Əgər devalvasiya nəticəsində borc yüz faiz artırsa, bu zaman hansısa faiz dərəcəsinin 3-4 faiz aşağı salınması heç nəyi dəyişmir. Yüz faiz fərq varsa, müddətin uzadılması da əslində borclunun yox, bankın xeyrinədir. Buna görə də güzəştləri əhəmiyyətli saymıram. Əhəmiyyətli güzəştlər yalnız o ola bilərdi ki, devalvasiya nəticəsində faiz fərqi bankla müştəri arasında bərabər bölünərdi. Ümid edək ki, palata da gələcəkdə məhz belə güzəştlərin üzərində işləyəcək. Amma buna ümid çox deyil".

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 101 (6422) 11 may 2016


Fərəc Kərimli


İlqar Məmmədov

# Müsavat başqanı müavininin məhkəməsi yenə təxirə salındı

## REAL sədrinin deputatlığa namizədliyinin isə qəbul edilməməsi ilə bağlı MSK və məhkəməyə müraciət edilib; hüquq müdafiəçisi may əfvinin verilməməsinin səbəblərini açıqladı

**Müsavat başqanının müavini Fərəc Kərimlinin mayın 10-da Ali Məhkəmədə hökmündən verilən şikayətə baxılıb. Proses növbəti dəfə mayın 24-nə təxirə salınıb. Buna səbəb kimi işin çoxluğu göstərilib.**

**Bu barədə vəkil Nemət Kərimli məlumat verdi:** "Tamamən yersiz əsaslandırma ilə proses təxirə salındı. Hesab edirəm ki, əsassız qərardır".

REAL sədri İlqar Məmmədov ətrafındakı müəmma isə bitmir. Onun aprelin 29-dakı məhkəmədə azadlığa buraxılmaması geniş müzakirələrə səbəb olub. Hazırda o, Şəki Təcridxanasında saxlanılır. Bu isə Məmmədovlar ailəsini ciddi narahat edir. Çünki bu amil Bakıdan Şəkiyə getmək üçün əlavə çətinliklər yaradır.

**Bununla bağlı REAL sədrinin həyat yoldaşı Vəfa Məmmədova müsavat.com-a bunları dedi:** "İlqar hələ Bakıya gətirilməyib. Vəziyyət əvvəlki kimidir. Mayın 9-da telefonla danışdıq. Deputatlığa namizədliyinə yaradılan maneələrlə bağlı MSK və məhkəməyə müraciət edilib. İlqarın Şəkidə bu qədər saxlanılması doğru deyil. Məhkəmə qərarı çıxıbsa, orada saxlanılması qanunsuzdur. Mayın 14-də Bakıya qaytarılma ehtimalı var. Bizim üçün Şəkiyə getmək çox çətindir. Hər dəfə 5-6 saatlıq yolu gedib-gəlmək asan deyil. İlqarın qeydiyyatı da Bakıyadır. Məhkəməyə görə aparıldı başa düşdük, amma nəyə görə orada saxlanıldığını anlamaq mümkün deyil. İlqar deyir ki, bacardıqca məni Bakıdan uzaq tutmaq istəyirlər. Həm ailəsini, həm də özünü incitmək üçün belə münasibət sərgilənir. İlqar ancaq evdən gedən yeməkləri yeyir. Yeməyi bəzən gec çatır. Nəticədə vaxtında qidalana da bilmir. Bütün bunların hamısını əziyyət vermək üçün edirlər".

**Hüquq müdafiəçisi Arzu Abdullayeva REAL sədri ilə bağlı göstərilən inadkarlığın lüzumsuz olduğu qənaətindədir:** "İlqar Məmmədovun azadlığa buraxılmaması böyük bir səhv idi. Onun həbsdə saxlanılması başadüşülən deyil. Tofiq Yaqublu bu işlə əlaqədar həbs olunmuşdu və artıq azadlıqdadır. İlqar beylə bağlı Azərbaycanın bu qədər inadkarlığı nəyə lazım? Bu sual hamımızı təşvişə salır. Beynəlxalq təşkilatlar qarşısında da bu qıcıq yaradır. Qarabağla bağlı proseslər başlayıb. Belə vəziyyətdə dünyada qıcıq yaratmaq lazım deyil. Siyasi məhbusların hazırkı vəziyyətdə bütünlüklə azad edilməsi müsbət addım olardı".

**Hüquq müdafiəçisi may əfvinin verilməməsini aprelin əvvəllərindən başlayaraq, cəbhədə baş verən gərginliklə əsaslandırdı:** "Mart ayından bu yana növbəti əfvin veriləcəyi ilə bağlı söhbətlər gedirdi. Subyektiv fikrim belədir ki, ötən ay başlayan proseslər buna səbəb oldu. Bundan əlavə, hakimiyyət inanmırdı ki, azadlığa çıxan siyasilər onların siyasətini tənqid etməyəcəklər. Sonuncu amil isə Rusiyadır. Azərbaycanın sivil dünyanın təkliflərini qəbul etməsi Rusiya üçün əks-effekt verir. Sivil dünya üçün yaxşı olan Rusiya üçün pisdir. Rusiya Azərbaycanın daxili və xarici siyasətinə çox təsir edə bilir. Ondan çox qorxuram ki, Azərbaycan getdikcə Rusiyanın təsiri altında daha çox yuvarlanır".

**NİDA-çı gənc Əbdül Əbilovun anası Nurcahan Əbilova oğlunun durumundan danışdı:** "Vəziyyəti yaxşıdır. Ayın 15-də görüş günüdür. Heç bir sözü, müraciəti yoxdur. Oğlumu gözləməkdən gözümün kökü saralıb. Allah var, rəhmi də var. Hər an ümidlər gözləyirik".

❑ **Cavanşir ABBASLI**

# Güney təşkilatları Zərraba və Zəncaniyə niyə dəstək vermir?

## "Onlar əslən güneyli olsalar da hər zaman İran rejiminə dəstək verən şəxslər olub"


Rza Zərrab


Babək Zəncani

**Bu günlərdə əslən güney azərbaycanlı olan Rza Zərrabın Nyu Yorkda ilk məhkəmə iclası keçirilməsi qalmaqallı olayı bir daha gündəmə gətirdi. Məhkəmədə R.Zərrab dörd ayrı maddə üzrə ittiham olunub. Məşhur iş adamı bank sənədlərini saxtalaşdırmaqda və çirkli pul yumaqda suçlanır və bu ittihamlara görə ona 75 il həbs cəzası gözləyir.**

O da məlumdur ki, R.Zərrabın iş ortağı Babək Zəncani də ötən ay İranda həbs olunub və ona edam cəzası kəsilib. Biznesmen 2013-cü ildə öz şirkəti üzərindən satılan neftin gəlirlərini İran Mərkəzi Bankına əksik yatırmaqda günahlandırılır. İddialara görə Zəncani bu yolla hesabına 2.8 milyard dollar keçirib. Onu da qeyd edək ki, B. Zəncaninin də əslən güney azərbaycanlı olduğu bildirilir.

Maraqlıdır, hər iki milyarder əslən güney azərbaycanlı olsa da onların həbsi ilə bağlı güney təşkilatları və ya qurumları heç bir dəstək nümayiş etmədi. Səbəb nədir?

**Güney Azərbaycan Milli Oyanış Hərəkatı (GAMOH) başqanının mətbuat məsələləri üzrə müavini Ağrı Qaradağlı məsələ ilə bağlı "Yeni Müsavat"a açıqlama verib. GAMOH rəsmisi qeyd edib ki, Rza Zərrab və Babək Zəncani əslən güneyli olsalar da hər zaman rejimin içində olan və Əhməd Nejad dönəmində tam rejimə dəstək verən şəxslər olublar:**

"Bildiyiniz kimi, Türkiyədə rüşvətxorluq məsələsində bəlli oldu ki, Rza Zərrab İranda olduğu vaxt İranın büdcəsini xaricə çıxarıb və dövrəyə salıb. Biz buna əminik ki, Rza Zərrab son zamanlarda İran hakimiyyətinin davamına çox böyük dəstək verib.

Təşkilatımız, sadəcə, birisi güneylidir deyə dəstək verə bilməz. Çünki Rza Zərrabın kimlərlə çalışdığını bilmirik. Məsələn, sonra məhkəmədə bəlli olsa ki, o, SEPAH və ya ETTELAAT-a və yaxud da Hizbullah təşkilatlarında yardım edirmiş, biz o zaman nə etməliyik?..

Daha sonrası isə Zərrab AKP-nin adamı kimi tanınır. Onu himayə etmək bizimlə MHP-nin arasını pozar".

**GAMOH rəsmisinin sözlərinə görə, əslən güney azərbaycanlı olan Rza Zərrab Güneydə xanımı, türk müğənnisi Ebru Gündəşə görə tanınıb:**

"Yoxsa Zərrab Güneydə tanıyan çox az adam ola bilərdi".

**Ağrı Qaradağlı təmsil etdiyi təşkilatın edam cəzasına tuş gələn gənc milyarder Zəncaniyə olan mövqeyindən də danışdı:**

"Zərrab azərbaycanlı olduğunu vurğulayırdı. Amma Zəncani bu məsələyə yanaşmadı. Təkcə Zəncani deyil, milyonlar var ki, özünü, kimliyini gizlədir, belələri çoxdur. Zəncani, sadəcə, olaylar əsasında gündəmə gəldi. Ona indi edam hökmü cəzası verilib və çox güman ki, bu qərar təsdiqlənəcək.

Birinci Zəncani rejimin öz balası idi, amma dəyişikliklər nəticəsində rejimin daxili hesablaşmasına qarşı gəldi. Biz bəlli olmayan bir kimsəni müdafiə etməməliyik. Lakin eyni zamanda biz edam cəzasına qarşıyıq. Buna baxmayaraq, onu bir güneyli kimi deyil, insan hüquqları kimi müdafiə etmək olar. Sonucda biz (GAMOH) bir demokratik təşkilatıq".

**Güney Azərbaycan Milli Azadlıq Cəbhəsinin (GAMAC) sözçüsü Məhsa Mehdili Bərzin də məsələ ilə əlaqədar "Yeni Müsavat"a danışıb. GAMAC sözçüsü də qeyd edib ki, adıçəkilən hər iki milyarder Güney Azərbaycanı təmsil etməyən şəxslərdir:**

"Güney Azərbaycan milli hərəkati özünü Tehran mərkəzli hərəkətlər və axınlardan müstəqil şəkildə aparmaqdadır. Bu, Güney Azərbaycan xalqı üçün tarixi bir başarıdır, cizgilərində çox kəskindir. Bütün bunlarla birgə bölgədə və İranla bağlı məsələlərə qarşı da yetərli həssaslıq göstərir və mövqeyində də ciddidir.

Babək Zəncani və Rza Zərrab İran siyasətinin fars mərkəzli siyasi və iqtisadi axınların çıxarları yönündə fəaliyyət edən, Güney Azərbaycanı təmsil etməyən iki adamdır. Güney Azərbaycan milli hərəkatı özlərini belə olaylarda məsul görmür. Azərbaycanın milli çıxarları üçün hətta Güney Azərbaycanda iqtisadi olaraq heç bir faydaları və məsuliyyət hissəsi olmayan İran hökumətinin çıxarlarına xidmət edən və dolayı yolla siyasi olaraq hökumətin dəyirmanına su tökənlər bizi deyil, İran hökuməti və yaxud fars mərkəzli hərəkətləri təmsil edirlər. Əlbəttə, kimliyindən asılı olmayaraq gerçək ədalət bizim hər zaman tək seçimimizdir və kimsənin haqsız və qaranlıq sistemlərdə fəda olmasını istəmərik".

Xatırladaq ki, Rza Zərrab 1983-cü ildə İranda dünyaya gələn və uzun müddət Türkiyədə iş adamı kimi çalışan güneyli azərbaycanlıdır. O, Türkiyənin məşhur müğənnisi Ebru Gündəşin həyat yoldaşıdır.

Edam cəzasına məhkum olan iranlı milyarder Babək Mörtəzə Zəncani isə 1974-cü ildə anadan olub. Məlumata görə, milyarder əslən Cənubi Azərbaycanın Zəncan şəhərindəndir.

❑ **Xalidə GƏRAY**

# Taleh Bağırov ev dustaqlığına buraxılmaq istəyir

**"Müsəlman Birliyi Hərəkatı" adlı təşkilatın sədri Taleh Bağırovun vəkilləri Cavad Cavadov və Elçin Sadıqov onun barəsində seçilmiş həbs-qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz olunması üçün məhkəməyə müraciət edib.**


Taleh Bağırov

Bu barədə "Report"a C.Cavadov məlumat verib.

Vəkilin sözlərinə görə, T.Bağırovun barəsində seçilmiş həbs-qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz olunması üçün ərizə bu gün Nəsimi Rayon Məhkəməsinə təqdim edilib. İşə yaxın günlərdə baxılacaq.

Xatırladaq ki, ötən ayın 7-də Nəsimi Rayon Məhkəməsində T.Bağırov barəsində seçilmiş həbs-qətimkan tədbirinin müddəti 3 ay uzadılıb. Məhkəmə qərarından narazı qalan "Müsəlman Birliyi Hərəkatı" adlı təşkilatın sədri apelyasiya şikayəti verib. Bakı Apelyasiya Məhkəməsi T.Bağırovun apelyasiya şikayətini təmin etməyib.

Qeyd edək ki, o, Cinayət Məcəlləsinin 214.2.1-ci (Terrorçuluq, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə), 220.2-ci (Kütləvi iğtişaş, hakimiyyət nümayəndəsinin qanuni tələblərinə fəal şəkildə tabe olmamağa və kütləvi iğtişaşlara, habelə vətəndaşlara qarşı zorakılıq etməyə çağırışlar etmə) 278-ci (Hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama), 279.3-cü (Qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma, adamların həlak olmasına və ya digər ağır nəticələrə səbəb olduqda), 281.2-ci (Dövlət əleyhinə yönələn açıq çağırışlar, təkrar və ya bir qrup şəxs tərəfindən törədildikdə), 283.2.3-cü (Milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması mütəşəkkil dəstə tərəfindən törədildikdə), 315.2-ci (Hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə) maddələri ilə ittiham olunur.

**Mayın 10-da Azərbaycanın mərhum prezidenti Heydər Əliyevin 93 yaşı qeyd olunub. Bu gün münasibətilə ilk olaraq ölkə başçısı İlham Əliyev ailəsi ilə birlikdə Fəxri Xiyabana gedərək, Heydər Əliyevin məzarını ziyarət edib.**





# Heydər Əliyevin 93 yaşı ölkə boyu qeyd edildi

Mərhum prezidentin məzarı ziyarət olundu; **Aydın Mirzəzadə:** "Zaman keçdikcə onun dahiliyini və fəaliyyətinin dəyərliyini daha dərindən duymağa başlayırsan"

Ölkə başçısından sonra yüksək çinli məmurlar, deputatlar müxtəlif qurumların nümayəndələri, sadə vətəndaşlar Fəxri Xiyabana gedərək, Heydər Əliyevin məzarını ziyarət ediblər. İlk olaraq nazirlər, deputatlar Fəxri Xiyabanda olublar. Daha sonra isə güc strukturlarının əməkdaşları sıra ilə Heydər Əliyevin məzarını ziyarət edib, məzarın önünə gül dəstələri qoyublar.

10 may tarixində universitet tələbələri, məktəb şagirdləri də mərhum prezidentin məzarını ziyarət ediblər.

**Heydər Əliyevlə bağlı xatirələrini bölüşən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri mübariz Qurbanlı söyləyib ki, onunla ilk görüşü tələbəlik illərinə təsadüf edib:** "Bütün həyatını xalqına və Vətəninə həsr etmiş ümummilli liderimiz Heydər Əliyev Azərbaycan xalqının tarixinə müstəqilliyimizin memarı və qurucusu kimi daxil olub. Ulu Öndərin yorulmaz, çoxşaxəli və zəngin fəaliyyəti Azərbaycanı sürətli inkişaf yoluna çıxarıb. Nə qədər Azərbaycan müstəqil dövlət kimi mövcuddursa, Heydər Əliyev də tariximizdə yaşayacaqdır".

**Yeni Azərbaycan Partiyasının İcra Katibliyinin Siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Aydın Mirzəzadə isə bildirib:**

"Zaman keçdikcə onun dahiliyini və fəaliyyətinin dəyərliyini daha dərindən duymağa başlayırsan. Həmişə fəxr edəcəyik ki, Heydər Əliyevin mənsub olduğu cəmiyyətdə yaşamışıq".









10 may tarixində Fəxri Xiyabanın qarşısında güc strukturlarının əməkdaşları tərəfindən yüksək səviyyədə təhlükəsizlik tədbirləri də görülmüşdü. Əhalinin Fəxri Xiyaban istiqamətində sıxlığı müşahidə olunduğu üçün həmin ərazidə polis əməkdaşlarının gücləndirilmiş iş rejimində fəaliyyət göstəriblər. Vətəndaşların təhlükəsizliyinin təmin olunması məqsədilə bütün zəruri addımlar atılıb.

Fəxri Xiyabanın vətəndaşlar tərəfindən ziyarəti axşam saatlarına qədər davam edib.

❑ **Əli RAİS**
**Fotolar müəllifindir**



## İlham Əliyev və xanımı ağacəkmə kampaniyasında iştirak edib

**Mayın 10-da prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Zığ-Heydər Əliyev Beynəlxalq Aeroportu magistral avtomobil yolunun 29-30-cu kilometrliyində salınan yaşıllıq sahəsində Heydər Əliyevin doğum gününə həsr olunmuş ağacəkmə kampaniyasında iştirak ediblər.**

APA-nın məlumatına görə, dövlət başçısı və xanımı əvvəlcə Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində görülən işlərlə bağlı məlumatları əks etdirən stendlərlə tanış olublar.

Ekologiya və təbii sərvətlər naziri Hüseyn Bağırov prezident İlham Əliyevə nazirlik tərəfindən 2008-2016-cı illər ərzində salınmış və damcılı suvarma sistemi ilə təchiz edilmiş yaşıllıqlar barədə məlumat verib. Bildirilib ki, həmin müddətdə Bakı-Şamaxı magistral avtomobil yolunun ətrafında 622 mindən, Bayıl yamacında 463 mindən artıq, Bakı-Qazax magistral avtomobil yolunun Ələt-Hacıqabul hissəsində 1 milyon 600 minə yaxın, Bakı-Quba magistral avtomobil yolunun ətrafında 680 mindən çox, Bakı-Astara magistral avtomobil yolunun Ələt-Salyan hissəsində 500 minə yaxın ağac əkilib.

Qeyd olunub ki, yaşıllıqlar salınarkən zeytun ağaclarına daha çox üstünlük verilib. Əkilmiş zeytun ağaclarının sayı artıq 1 milyon 268 mini keçib.

Dövlət başçısına məlumat verilib ki, indiyədək Zığ-Heydər Əliyev Beynəlxalq Aeroportu magistral avtomobil yolunun ətrafında ümumi sahəsi 969 hektar, uzunluğu isə 20 kilometr olan ərazidə 58 növdə bir milyondan artıq ağac əkilib. Onların arasında zeytun, Eldar şamı, sərv, tuya, oleandr, Arizona sərvi, akasiya, göyrüş, ləlmajör, tut, nar, badam, sarağan, meliya və digər ağac növləri var.

Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva ərazidə ağac əkiblər.

Dövlət başçısı və xanımı ağacəkmə kampaniyasının iştirakçıları ilə xatirə şəkilləri çəkdiriblər.

# Putin Bakıya mayın sonlarında gələcək

"İnterfaks"a məlumat verən mənbə Putinin səfərinin mayın sonlarından gec olmayaraq baş tutacağını, Rusiya prezidentinin İrəvana da səfər edəcəyini bildirib

**Rusiya prezidenti Vladimir Putinin Bakıya səfər edəcəyinə dair məlumat təsdiqlənir. Yeni məlumata görə, Putinin Bakıya gözlənilən səfəri mayın sonlarına qədər baş tutacaq. Bu haqda "İnterfaks-Azərbaycan" agentliyi məlumatlı mənbəyə istinadən xəbər yayıb.**

Xatırladaq ki, ötən həftə sonu Moskvadakı mötəbər mənbələrdən haqqin.az saytına Putinin Bakıya səfərə hazırlaşdığı haqda məlumat daxil olmuşdu. Məlumata deyilirdi ki, Putinin təyyarəsi Bakıya uçmaq üçün hazırlanır, ancaq səfərin dəqiq vaxtı Azərbaycan rəhbərliyi ilə aparılan məsləhətləşmələrdən sonra bilinəcək. Mənbə Rusiya prezidentinin səfərinin Qarabağ məsələsi ilə bağlı olduğunu və bu səbəbdən Ermənistanla da məsləhətləşmələrin aparıldığını bildirmişdi.



Daha sonra Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupundakı mənbələr Putinin Bakıya səfərinə hazırlıq getdiyini təsdiqləyib. Mənbələr deyiblər ki, səfər yaxın günlərdə gözlənilirdi, ancaq bir qədər təxirə salınıb.

İndi "İnterfaks"a məlumat verən mənbə də Putinin səfərinin mayın sonlarından gec olmayaraq baş tutacağını, Rusiya prezidentinin İrəvana da səfər edəcəyini bildirib. **"Səfərin məqsədi çox güman ki, Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması və təmas xəttində baş vermiş son hadisələr olacaq"** - mənbə bildirib.

Xatırladaq ki, aprelin əvvəllərində Qarabağda gedən döyüşlərin dayandırılmasından sonra Rusiya prezidenti Ermənistan və Azərbaycan rəhbərləri arasında danışıqların bərpa edilməsi üçün şəxsən təşəbbüs göstərib, bu məqsədlə Kreml bütün diplomatik rıçaqları işə salıb. Lakin Azərbayca rəhbərliyi danışıqların bərpasına hazır olsa da Ermənistan prezidenti Serj Sərkisyan nümayişkaranə şəkildə danışıqlardan imtina edib.

Hazırda Ermənistan tərəfi danışıqların bərpası üçün ağlasığmaz şərtlər irəli sürür. Ermənistanın bu davranışı Rusiya prezidentinin sülhməramlı missiyasının iflasa uğramasına səbəb olub və belə görünür ki, Putin bu vəziyyətlə hesablaşmaq niyyətində deyil.



## Türkmənistadakı səfirliyimiz mərhum prezidentin xatirəsinə həsr olunmuş tədbir keçirib

**Mərhum prezident, görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə Azərbaycan Respublikasının Türkmənistandakı səfirliyi tərəfindən tədbir keçirilib. Tədbirdə Türkmənistanda yaşayan soydaşlarımız, ictimaiyyət nümayəndələri və ziyalılar iştirak ediblər. Bu barədə musavat.com-a Azərbaycanın Türkmənistandakı səfirliyindən xəbər verilib.**

**Məlumatda deyilir:** "Tədbiri giriş sözü ilə açan səfir Həsən Zeynalov Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətləri olduğunu bildirib. Heydər Əliyevin Sovet İttifaqı zamanı Azərbaycana ilk rəhbərliyi dövründən başlayaraq, ölkəmizin iqtisadi-sosial, mədəni və digər sahələrdə böyük nailiyyətlərə imza atdığını, keçmiş SSRİ-nin aparıcı respublikalarından birinə çevrildiyini, eləcə də H.Əliyevin azərbaycançılıq məfkurəsinin formalaşmasında mühüm rol oynadığını qeyd edib. H.Əliyevin müstəqil Azərbaycanın prezidenti olduğu illərdə də ölkəmizin bütün sahələrdə qüdrətinin gücləndirilməsi yönündə yorulmadan çalışdığı, məhz onun sayəsində Azərbaycanda ictimai-siyasi sabitliyin bərpa olunduğu və ölkənin iqtisadi inkişaf dövrünə qədəm qoyduğu tədbir iştirakçılarının nəzərinə çatdırılıb. Qeyd olunub ki, bu siyasi və iqtisadi kurs hazırda prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir".

YENİ MÜSAVAT
N 101 (6422) 11 may 2016



# Əlamətdar günlərdə ələ düşən məmurlar

**Samir SARI**

**Heç bilirsiniz ki, ABŞ-da, Obama administrasiyasında ən ağır iş hansıdır? Çox adam deyəcək ki, prezidentin özünün işi hamısından ağır olar. Amma yox.**

Ağ Evdə ən ağır iş administrasiyanın mətbuat xidmətinin rəhbərinin işidir. Çox məşəqqətli, iztirablı işdir. Ağ Evin mətbuat katibləri Duayt Eyzenhauerin vaxtından bəri həmişə üzütüpürcəkli olublar. Elə də qalırlar.

Təsəvvür edin, onlar hər səhər brifinq keçirməli və suallara cavab verməlidirlər. Suallar da nə suallar: “Qvineya-Bisauda müxalifət fəalı həbs edilib, Obama administrasiyasının buna münasibəti necədir?”; “Suriya...”; “Rusiyanın...”; “Türkiyəyə...”; “İranı...”; “Panamada...”; “Azərbaycandan...” kimi onlarla sual. Dünyanın harasında nə baş verirsə, versin, Ağ Evin mətbuat katibi o barədə suala cavab verməlidir. Tərs kimi, elə əcnəbi jurnalistlər də olur ki, öz sualları ilə Ağ Evi silkələyirlər.

Ən pisi odur ki, amerikalı jurnalistlər bizimkilər kimi ədəb-ərkanlı, qanacaq-qabiliyyətli deyillər, ölçü-biçi hərləmirlər, saqqız çeynəyə-çeynəyə, ədabaz-ədabaz prezident Obamaya köntöy suallar verirlər. Mətbuat katibi şefini qorumaq istəyəndə sözünü kəsir, üstünə acıqlanırlar ki, ser, sualdan yayınmayın, düzgün cavab verin. Hələ elə olur ki, gecəyarısı zəng vurub mətbuat katibini yuxudan oyadırlar ki, sualımız var və sair və ilaxır.

Onlarda xasiyyətdir, hər gün Ağ Evə akkreditasiya olunmuş jurnalistlər tülkü durmazdan Obamanın qapısını kəsdirirlər. Prezident və mətbuat katibi səhər işə başlayanda “hello”laşmazdan dərhal sonra məsləhətləşirlər ki, bu gün jurnalistlərə nə deyəcəklər. Allah eləməsin ki, biri ağzından quş buraxsın, həmin dəqiqə hoydu hoyduya götürərlər.

Bizdə isə başqa cürdür. Bizdə jurnalistlər səhər-səhər heç bir dövlət strukturunun qapısının ağzını kəsdirə bilməzlər. İmkan yoxdur. Sualları yazılı göndərmək, 10 gün əvvəlcədən müraciət etmək və gözləmək lazımdır. “Qanunvericilikdə nəzərdə tutulmuş müddət ərzində sorğularınız cavablandırılacaqdır”.

Ona görə də azərbaycanlı jurnalistlər əlamətdar günləri səbirsizliklə gözləyirlər. Yanvarın 20-sidirsə, demək, nazirlərdən, məmurlardan informasiya almaq üçün Şəhidlər Xiyabanına getmək lazımdır. Hamısı ora gələcək. Kimi tutdular, tutdular, suallarını verəcəklər. Tutduq verməyənləri isə Allaha tapşırmaq lazımdır.

Dekabrın 12-sidirsə, jurnalistlər üçün görüş yeri Fəxri Xiyabandır. Nazir-məmur əhli mütləq oraya, ziyarətə gələcəklər, ütük tərpənib sualları döşəmək olar.

Mayın 10-dursa, demək, məmurlar Mərkəzi Bankın qabağındakı abidənin önünə toplaşacaqlar, cəld olmaq lazımdır.

Martın 20-dirsə, ölkə rəhbərliyi Fəvvarələr meydanına gəzintiyə çıxacaq. Rəhbər orda olacaqsa, demək, əyan-əşrəf də orda olacaq. Sualı olan varsa, qabağa gəlsin.

Mayın 28-i, iyunun 15-i, sentyabrın 20-si (“Əsrin müqaviləsi” imzalanan gün) də əlamətdar günlərdəndir, həmin günlərdə ictimai-siyasi tədbirlər, toplantılar ola bilər, sadəcə, tədbirin yerini öyrənib ora varid olmaq lazımdır.

Bəli, bizdə belədir. Jurnalistlərin yüksək mənsəbli məmurlara çıxış imkanı yalnız əlamətdar günlərdə və kütləvi tədbirlər zamanı yaranır. Başqa vaxt çətindir. Əslində, həmin günlərdə də asan deyil. Elə sital məmurlar var ki, yuxarıda dediyimiz kimi, jurnalistə tutduq vermirlər, kamera, mikrofon, diktofon görəndə iynə görmüş cin kimi aradan çıxırlar. Ələ keçən məmurlar isə səliqəli şəkildə verilmiş ütülü suallara nişastalı cavablar verir, canlarını qurtarırlar.

Sonra saytlara baxırsan, hamısında eyni adamlar *(Elman Rüstəmov, Əli Əhmədov, Rüfət Aslanlı, Aydın Mirzəzadə),* eyni xəbərlər. Bir də vaxt tamamında onlar telekanalların xəbər bülletenlərində görünürlər. Təxminən iki gün bu tipli xəbərlər bol olur. Sonra o xəbərlərin istehsal edilməsi prosesi qalır başqa bir əlamətdar günə və ya tədbirə.

İllərdir ki, belədir. Əgər bir gün məmurların əlamətdar tədbirlərə, ziyarətlərə gəlməsi ənənəsi pozulsa, elə ola bilər ki, jurnalistlər aylarla nazir üzü görməzlər.

Hardansa qulağıma “elə görməsələr yaxşıdır” mızıltısı gəlir...

# İslahatlar paketinin içində baş nazir dəyişikliyi

## Siyasilər belə bir dəyişikliyi mümkün saymırlar, çünki...



**Ötən ilin sonunda devalvasiya və neftin ucuzlaşmasından sonra prezident səviyyəsində elan edildi ki, Azərbaycanda islahatlar davamlı olacaq. Bunun ardınca son aylarda müəyyən struktur islahatları müşahidə olundu və proses gedir. Ancaq ekspertlərə görə, islahatlar paketində əsas yeri Nazirlər Kabineti tutmalıdır və bu sırada baş nazir dəyişikliyi də mühümdür.**

Bəs islahatlar paketinin içində baş nazirin dəyişdirilməsi gözlənilənilirmi? Bu posta necə bir şəxs gətirilə bilər və gətirilməlidir?

**VİP sədri Əli Əliyev** bildirdi ki, neft qiymətlərinin dünyada düşməsi Azərbaycanda da yeni iqtisadi mərhələnin başlanğıcına start verib: “Ən yüksək səviyyədə neft erasının bitdiyi anonsu verildi. Belə şəraitdə iqtisadiyyatın yeni dövrə adaptasiyası baş verməli, makro səviyyəli işlərdən başlamış, ən xırda detallara qədər yeni dövrün reallıqları nəzərə alınmalı idi. Bu günə qədər görülən işləri iqtisadi rasionallıq baxımından kafi qiymətləndirmək olmaz. Görünən odur ki, iqtisadi məqsədəuyğunluq siyasi prioritetlərə təslim etdirilir. İqtidar siyasi hakimiyyətə xələl yetirməyəcək, hakim komandanın iqtisadi maraqlarını nəzərdə tutacaq dərəcədə islahatları mümkün görür. İnanmıram ki, komanda bitkin, konseptual əsaslandırılmış plana malik olsun. Pərakəndə və sistemsiz verilən açıqlamalar dediklərimin sübutudur. İqtisadiyyatın lokomotivi hesab edilən bank sektorunda dəyişiklik hiss edilmir. Əksinə, mütəmadi olaraq, fərqli bank subyektlərinin xüsusi idarəçiliyə keçməsi barədə məlumatlara rast gəlirik. O ki qaldı baş nazir məsələsinə, bu iqtisadidən daha çox, siyasi postdur. Əslində o postda kimin əyləşməsindən asılı olmayaraq, bugünkü idarəçilik fəlsəfəsində həmin şəxs Rəsi-zadədən fərqlənməyəcək. Çünki icra hakimiyyəti prezidentin əlində təmərküzləşib. Bizim variantda ABŞ üslublu struktur daha düzgün olardı. Baş nazir Azərbaycan reallığında arabanın ”5-ci təkəri"dir. Onun mövcudluğu siyasi konyuktura üçün mahiyyət kəsb edir. Yəni ölkə başçısının sığortalı fəaliyyəti üçün 2-ci ierarxik şəxsin Rəsi-zadə kompleksiyalı olması məqbuldur. Demokratik olmayan cəmiyyətdə belə postlar daha çox siyasi hakimiyyəti qorumaq üçün önəm kəsb edir. 81 yaşlı Rəsi-zadənin yerinə 31 yaşlı “Rasizadə”ni qoysalar, vəziyyət indikindən fərqlənməyəcək".

Yeni AXCP-nin sədri Razi Nurullayev isə hesab edir ki, islahatlar paketində baş nazirin dəyişməsi əksini tapmayıb: “Əksini tapsa belə, bu, ciddi dəyişikliklərə səbəb olmayacaq. Axı Azərbaycanda güclü baş nazirin olması kimə sərf edir? Məgər YAP-a sərf edir? Birmənalı olaraq, xeyr. Azərbaycan prezident üsul-idarəsi olan bir respublikadır. Son söz hər zaman prezidentindir. Prezident də heç zaman istəməz ki, hər hansı bir iddialı fiqur ölkənin ikinci postuna otursun və onun göstərişlərini təftiş etsin. Məsələ təkcə ölkənin birinci şəxsinin öz qüdrətini kölgədən qorumaq məsələsində də deyil. Düşüncəmə görə, güclü baş nazir ölkəmiz üçün xeyirli olmaya da bilər. Əslində bu, komandalaşma, ittifaqlaşma və dövlət içində dövlət yaratma anlamına gəlir. Bu baxımdan, Azərbaycan üçün güclü baş nazirin varlığı sərfəli variant deyil. Baş nazir əslində yaxşı təsərrüfatçı və iddiasız adam olmalıdır. Azərbaycanın hazırkı durumu və statusu üçün baş nazirin belə olması məqbuldur. Bir məqamı da vurğulamaq yerinə düşər. Baş nazirin kim olması həqiqəti dəyişdirə bilməz. Çünki göstərişlər prezident tərəfindən gəlir və yerinə yetirilir. O, istəsə də, güclü ola bilməz. Dediklərimin yekunu olaraq, qeyd etmək istəyirəm ki, Artur Rəsi-zadə siyasi hakimiyyət üçün kifayət qədər uğurlu şəxsdir və prezident onu kreslosundan ayırmaq niyyətinə düşməz. Bu o zaman baş verər ki, Artur müəllim sağlamlıq baxımından vəzifəsini icra edə bilməsin. O isə maşallah, buz baltası kimidir”.

❑ **Etibar SEYİDAĞA**

# Ölkənin siyasi afişası- müxalifət ayın sonuna hazırlaşır...

## Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının ildönümü müxtəlif səviyyələrdə qeyd olunacaq

**Ölkə müxalifətinin may ayı üçün gündəmi o qədər də sıx deyil. Müxalifət daha çox mayın 28-nə hazırlaşır. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının növbəti ildönümünün müxalifət düşərgəsi tərəfindən müxtəlif səviyyələrdə qeyd edilməsi planlaşdırılır.**



**Müsavat Partiyasının İcra Aparatının rəhbəri Gülağa Aslanlı** musavat.com-a bildirib ki, 28 mayla bağlı partiyanın tədbiri olacaq: “Bu ay olacaq digər tədbirlərlə bağlı Divanda müzakirələr olacaq”.

**Ümid Partiyasının sədr müavini Taleh Əliyev** isə qeyd edib ki, partiyanın əsas fəaliyyət istiqaməti 90 saylı seçki dairəsi ilə bağlıdır: “Partiyanın Ağdaş seçki dairəsində təkrar seçkilərdə namizədlə iştirakı nəzərdə tutulub. Bu səbəbdən partiyanın demək olar ki, əsas fəaliyyət istiqaməti bu sahədədir. Partiya sədrinin namizədliyinə görə fəaliyyətimiz 90 saylı seçki dairəsinin üzərində fokuslaşıb. Amma bu ay həm də Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının ildönümü olacaq. 28 mayla bağlı partiyada tədbir keçiriləcək. Eyni zamanda partiyanın regionlarda müşavirələri, toplantıları nəzərdə tutulub”.

Klassik Xalq Cəbhəsi Partiyası (KXCP) də may ayında bir sıra tədbirlər keçirəcək. Partiyanın sədr müavini Xəzər Teyyublu musavat.com-a bildirib ki, mayın 25-də işğalçı rus ordusunun Azərbaycandan çıxarılmasının 23-cü ildönümü ilə bağlı tədbirlərin keçirilməsi planlaşdırılır. Həmçinin həmin gün milli azadlıq hərəkatının lideri Əbülfəz Elçibəyin məzarı ziyarət ediləcək. 28 may Respublika Günü ilə bağlı isə KXCP Novxanı kəndində demokratik cumhuriyyətin banisi Məhəmməd Əmin Rəsulzadənin abidəsi önündə bayram tədbiri keçirəcək. Saat 13.30-da baş tutacaq tədbirdən sonra rəsulzadənin Novxanı məzarlığında uyuyan doğmalarının məzarı da ziyarət olunacaq.

**Ayın sonunda isə “AG blok” AG Partiyaya çevriləcək. “AG blok”un təsisçilərindən Tural Abbaslı musavat.com-a bildirib ki, mayın 29-da “AG blok”un partiyaya dönüşünün qurultayını keçirəcəklər:** “Hakimiyyət yer ayıra bilsə, hazırlıqları başa vursaq, qurultayımızı keçirəcəyik. Azərbaycan siyasi səhnəsinə bu günə qədər fəaliyyət göstərmiş ən gənc fəal partiyalardan biri qədəm qoyacaq. Düşünürük ki, bu qurultay düşündüyümüz kimi baş tutsa, bundan sonrakı Azərbaycan tarixində artıq AG Partiya tandemi sona qədər özünü göstərəcək. Düşünürəm ki, bu güc siyasi sahəni daha da aktivləşdirəcək”.

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 101 (6422) 11 may 2016

# İqbal Ağazadə seçkilərdə qarşılaşdığı əngəllərdən danışdı

## "Baş verənlər seçkinin necə keçəcəyinin anonsudur..."

**90 saylı Ağdaş seçki dairəsində iyunun 18-də keçiriləcək deputat seçkilərində Ümid Partiyasının namizədi İqbal Ağazadənin seçki kampaniyasına müdaxilələr edilir. İqbal Ağazadənin səlahiyyətli nümayəndələri Tamilla Qulami və Rüfət Muradlı artıq bu barədə mediaya geniş məlumatlar veriblər.**

Onlar YAP-ın deputatlığa namizədi, Ağdaş Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Cavid Osmanovun adamlarının İqbal Ağazadənin imzatoplama kampaniyasını həyata keçirənləri təhdid etdiyini bildiriblər. Dünən isə partiya sədri şəxsən özü baş verənlər barədə "Yeni Müsavat"a danışıb.

**Onun sözlərinə görə, seçki kampaniyasının hazırkı mərhələsində baş verənlərə diqqət etdikdə ilkin təəssürat belə formalaşır ki, seçki də bu cür keçəcək:** "Çünki icra başçısının birinci müavini deputatlığa namizəddir və rayonda bütün inzibati resursları səfərbərliyə alıb, qanunsuz olaraq seçki prosesinə cəlb edib. Əslində o adam icra başçısının müavini vəzifəsindən istefa verməli idi və vəzifəsi üzərindən təsir imkanları sıfıra endirilməliydi. Təəssüf ki, bu olmayıb - baxmayaraq ki, bütün rayon ərazisində seçicilər bizi çox isti qarşılayır, imza verməyə səy göstərib. Bu qədər təzyiqlərin olmasına baxmayaraq, 28 saat ərzində 550 imza toplamışıq. Amma kənd icra nümayəndələrindən tutmuş bələdiyyə sədrlərinə qədər rəsmi səlahiyyətli adamların hamısı məhz seçkinin pozulmasına, seçkiyə qanunsuz müdaxiləyə yönəlik fəaliyyətə cəlb olunub. Çoxları etirafı edir ki, vallah, biz bu məsələlərə qarışmamağa çalışırıq, ancaq bizə icra başçısının birinci müavini Cavid Osmanov və İcra Hakimiyyətinin təşkilat şöbəsinin Əsgərxan adlı müdiri göstəriş verir. Hər halda, baş verənlər seçkinin necə keçəcəyinin anonsudur. Əgər səlahiyyətli dövlət qurumları, Mərkəzi Seçki Komissiyası bu məsələlərə müdaxilə etməsə, deməli, vəziyyətin bu şəkildə olmasını və seçkinin də bu şəkildə keçirilməsini istəyirlər".


İqbal Ağazadə

**İ.Ağazadə bildirdi ki, səlahiyyətli nümayəndələri MSK-ya və DSK-ya şikayət ərizəsi ilə müraciət edib:** "DSK-da müraciəti qəbul etmək istəmirdilər. Uzun çək-çevirdən sonra ərizəni qəbul etdilər. MSK-nın qaynar xəttinə dəfələrlə zəng olunub. Təəssüf ki, həmin günlərdə qaynar xətt işləməyib. Daxili İşlər Nazirliyinin 102 xidmətinə çoxlu sayda zəngimiz olub. Ağdaş Rayon Polis Şöbəsində bu müraciətlərlə bağlı araşdırmalar var. Araşdırmaların nəticəsinin necə olacağını bilmirik. Amma baş prokurora, daxili işlər nazirinə də Ağdaş rayonunda bizə qarşı həyata keçirilən qanunsuzluqlarla bağlı şikayət ərizəsi ilə müraciət olunacaq. Çünki ayrı-ayrı maşınlarda bizim səlahiyyətli nümayəndələri təqib edən, onların qarşısını kəsib təhdid edən şəxslər təkcə seçkini pozmağa yönəlik addımlar atmayıblar, həm də cinayət xarakterli addımlar atıblar, insanları öldürəcəkləri ilə təhdid ediblər, rayon ərazisinin tərk edilməsi ilə bağlı ultimativ bəyanatlar veriblər. Bunların bəzilərinin video, bəzilərinin foto sübutları var. Partiyamız baş verən qanunsuzluqlarla bağlı bəyanat yayıb. Siyasi hakimiyyətin borcudur ki, siyasi partiyanın verdiyi bu bəyanata dərhal reaksiya versin. Əslində mahiyyət etibarilə belədir ki, seçkidə pozulmuş hüquqlar və nəticələri ləğv olunmuş dairə məsələsi varsa, Seçki Məcəlləsinin tələbinə uyğun olaraq DSK köhnə tərkibdə formalaşdırılmamalıdır. Təəssüf ki, 900 saylı dairədə Seçki Məcəlləsinin bu tələbi pozulub və DSK köhnə tərkibdə formalaşdırılıb".

**İ.Ağazadə sonda onu da bəyan etdi ki, qanunsuzluqlara rəhbərlik edən icra başçısının müavini və deputatlığa namizəd Cavid Osmanovun barəsində ciddi açıqlamaları olacaq:** "Bizim də Cavid Osmanovun kimliyi, indiyə qədər necə fəaliyyət göstərməsi, hansı şərtlər daxilində icra başçısının müavini vəzifəsindən vaxtilə azad olunması, sonra kimlərin vasitəsilə həmin vəzifəyə bərpa olunması, rayonda hansı fəaliyyətlə məşğul olması, torpaq məsələlərindən, biznes məsələlərindən tutmuş, başqa qeyri-qanuni əməlləri ilə bağlı məlumatlarımız var. Bununla bağlı mətbuata mövqeyimizi çatdıracağıq. İşlərimiz yekunlaşandan sonra KİV-i Cavid Osmanovla bağlı ətraflı məlumatlandıracağıq. Bu adam əslində rayonda öz funksiyasını yerinə yetirmir, başqa işlərlə məşğuldur".

**İ.Ağazadə namizədliyi üçün toplanmış imzalar və digər sənədləri mayın 11-də seçki komissiyasına təqdim edəcəklərini bildirdi:** "Maraqlı məqamlardan biri odur ki, mənə imza verənləri axtarırlar və gözləyirlər ki, biz imza vərəqələrini təqdim edəndən sonra bizə imza vermiş şəxslərə təzyiq edib imzalarını geri götürtdürsünlər. Bu da hüquq deyil. Hətta hamı imzasını geri götürmüş hesab olunsa belə, bu, imzaların etibarsızlığı haqqında fikir formalaşdıra bilməz. Hüquqda "imzamı verdim, sonra da geri götürdüm" kimi bir anlayış yoxdur. Təəssüf ki, DSK-lar dəfələrlə bu qanunsuz üsuldan istifadə ediblər. Amma MSK buna bir hüquqi qiymət verməlidir ki, imza veriləndən sonra "mən imzamı geri götürürəm" kimi hüquqi anlayış yoxdur".

❑ Etibar SEYİDAĞA

# Müsavat rəhbərliyindən "gedənlərə yaxşı yol" mesajı

## Partiya rəhbərliyi istefalara münasibət bildirdi

**Müsavat Gənclər Təşkilatının keçmiş sədri Tural Abbaslı başda olmaqla, bir qrup gəncin son günlərdə Müsavat Partiyasından istefa vermələrinə partiya rəhbərliyindən mayın 10-da münasibət bildirilib.**

"Yeni Müsavat"a açıqlamasında Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı bildirdi ki, həmin şəxslər partiya ilə münasibətlərini, partiya fəaliyyətlərini Müsavat Partiyasının 2014-cü ildə keçirilən 8-ci qurultayından sonra faktiki olaraq dayandırmışdılar. İndi, sadəcə, gedişlərini rəsmiləşdirirlər: "Gedənlərə yaxşı yol. Kimin nə qədər gücü varsa, o qədər qaldı. Gedənlərə yaxşı yol, gedib öz işləri ilə məşğul olsunlar. Müsavatdan onlar əslində çoxdan ayrılmışdılar və Müsavatda fəaliyyət göstərmirdilər".

**"Həmin gənclərin gedişini partiya üçün itki sayırsınızmı" sualına G.Aslanlı belə cavab verdi:** "Onlar çoxdan ayrılıb gediblər. O dövrdə gedən vaxtı gedişləri itki idi. İndi isə fərqli durumdur, çünki onlar iki ilə yaxındır partiyada heç bir fəaliyyət göstərmirdilər. Ona görə də indiki qərarları Müsavat Partiyası üçün itki anlamı vermir".

G.Aslanlı istefa verənlərin ərizələrinin partiyaya daxil olub-olmadığı haqda məlumata malik olmadığını dedi. Müsavat Divanının üzvü İkram İsrafil isə Tural Abbaslının və bir qrup gəncin istefasına "yolları açıq olsun" deməklə münasibət bildirdi.

Xatırladaq ki, istefa verən gənclər AĞ Partiya adında yeni siyasi təşkilat yaradacaqlarını və yaxınlarda qurultay keçirəcəklərini bəyan ediblər.

❑ E.SEYİDAĞA

# AXCP qeydiyyata alınmaya bilər

## Razi Nurullayev: "Tərəflərdən heç birinin tanınmaması baş verə bilər"

**Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) aylardır davam edən qeydiyyat müəmmasının nə vaxt bitəcəyi məlum deyil. Əli Kərimli və Razi Nurullayev qanadlarının sənədlərini Ədliyyə Nazirliyi geri qaytarandan sonra məhkəmənin indiyə qədər konkret qərar verib, tərəflərdən birini AXCP kimi tanıyacağı gözlənilirdi.**

Amma gözləntilərin əksi baş verdi. Hər iki qanad hələ də bir qərardan asılı vəziyyətdə fəaliyyət göstərirlər. Qeydiyyatla bağlı prosesin də səngidiyi müşahidə olunur. Bu isə ya AXCP-nin, ümumiyyətlə, qeydiyyata alınmayacağı, ya da bu prosesin illərlə davam edə biləcəyi məsələsini gündəmə gətirib.

**Yeni AXCP-nin sədri Razi Nurullayev müəmmalı vəziyyətlə bağlı "Yeni Müsavat"a açıqlamasında bunları dedi:** "Yaşanan vəziyyət mənə də aydın deyil. Çünki məhkəmələrin və iqtidarın hansı addım atacağı heç kimə bəlli olmur. Məhkəmə vəziyyəti elə həddə çatdırıb ki, heç bir qərar vermək istəmir. Görünən odur ki, məsələnin bu şəkildə qalması davam edəcək. Belə bir vəziyyətdə nə deyə biləcəyimi, açığı, bilmirəm. Çalışıram ki, qeydiyyatla bağlı məsələ partiyanın fəaliyyətinə təsir etməsin. Hazırda məhkəmə prosesi davam edir və məhkəmədən böyük gözləntilərimiz var. Veriləcək qərar fəaliyyətimizi tənzimləyəcək. Sadəcə, qeydiyyatla bağlı vəziyyətin təsirindən kənarda qalmağa çalışırıq. Düşünürəm ki, vəziyyət bu şəkildə davam edə bilər və hətta uzanar. Bu, hakimiyyət üçün elə də asan məsələ deyil. Çünki burada söhbət vacib bir partiyanın qeydiyyatından və gələcəyindən gedir. İki tərəfin də iddiası olduğu üçün məhkəmə çətinlik çəkir. Burada siyasi və ictimai qərar da olmalıdır. Hakimiyyət tərəfindən araşdırmalar, görünür, davam edir, amma sonda istənilən halda qərar veriləcək".


Razi Nurullayev

**R.Nurullayev qeydiyyat müəmmasının illərlə davam edə biləcəyini də istisna etmədi:** "Bu proses illərlə də davam edə bilər, sonunda tərəflərdən heç birinin tanınmaması da baş verə bilər. Məhkəmənin qərarı xeyrimizə də ola bilər, amma əksi də gözləniləndir. Hazırda AXCP-nin qeydiyyatı ümumilikdə var. Partiya havadan asılı vəziyyətdə qalıb. Havadan asılı vəziyyətdə qalmağımız da aylarla davam edə bilər. Bu proses bir həftə içərisində də yekunlaşa bilər. Hər şey məhkəmənin verəcəyi ədalətli qərardan asılıdır. Mövcud vəziyyət bizi qane etmir. Mənə elə gəlir ki, əks tərəf də bu fikirdədir. Amma bizim AXCP kimi tanınmağımız əks tərəfi qane etmədiyi üçün vəziyyətin bu şəkildə qalması əks tərəfə sərf də edir".

**Yeni Azərbaycan Partiyasının icra katibi, deputat Siyavuş Novruzov jurnalistlərə açıqlamasında AXCP məsələsinə toxunaraq, tərəflərdən heç birini partiya kimi tanımadıqlarını bildirib:** "Azərbaycan Xalq Cəbhəsi Partiyasının qurultayında saxtakarlıq olub.

Orada sədr və Məclis seçkilərində saxtakarlıq olub və bu, qarşı tərəfi (Razi Nurullayev və ətrafı-C.A) alternativ qurultay keçirməyə vadar edib. Orada təşkilat prinsipləri pozulub. Məhkəmə, Ədliyyə Nazirliyi hansı tərəfi tanısa, həmin tərəf də partiya kimi tanınacaq. Ancaq biz heç bir tərəfi partiya kimi tanımırıq".

**Xatırladaq ki, AXCP ötən ilin ortalarında iki hissəyə parçalandı. Tərəflərdən Əli Kərimli ötən ilin sentyabrında, Razi Nurullayev isə oktyabrında qurultaylarını keçirdilər. O vaxtdan bu yana partiya qeydiyyatsız fəaliyyət göstərir.**

❑ Cavanşir ABBASLI



# Utanmazların sindromu

Zamin HACI
zaminhaci@gmail.com

**Keçən ay İspaniyada bir kişi evində zibillərin altında qalıb ölmüşdü. Adam əlinə keçən hər şeyi evinə daşıyırmış, üstəlik, evdə işlətdiyi əşyaları-filanı da köhnələndə atmırmış. Nəticədə zir-zibil evdə qalaqlanıb, dağ boyda olub, bir gün adamın təpəsinə tökülüb. Qalıb zibilin altında və ölüb. Əcaib ölümdür. Beləsini mən Orxan Pamukun "Məsumiyyət muzeyi" romanında oxumuşdum. Sən demə, gerçək həyatda da varmış. Psixoloji bir haldır. İnsan keçmişlə bağlı hər şeyi özündə saxlamaq istəyir. Buna kolleksioner fetişizmi də deyə bilərsiniz. Lap romantik olaraq hadisəni "İnsan xatirələrinin altında qalıb öldü" cümləsi ilə ifadə eləmək mümkündür.**

Fikrimcə, zibil toplamaq və altında qalıb ölmək təkcə bir insana aid faciə növü deyil, əksinə, tarixdə öz keçmişinin ağır yükündən, zir-zibilindən qurtula bilməyib, bu zibillərin altında qalıb həlak olmuş çoxlu millətlər var. Ölkəmizdə də zir-zibil artıq çox yığılıbdır, ya bunu yığıb emal eləməliyik, ya da aparıb poliqonda yandırmalıyıq. Əks halda, nəticələr acınacaqlı olacaqdır. Bizim nağıllarda geriyə baxan qəhrəman daşa dönürdü, biz isə ancaq geriyə baxmaqla məşğuluq, heç bilmirik bizi qabaqda nə gözləyir. Köhnə, naftalin də yox, çürüntü iyi verən bir sistemin əsirinə çevrilmişik.

Ətraf aləmə, dünyaya baxırsan, hər yerdə hansısa dəyişiklik baş verir. Biri müsəlmanı mer seçir, başqası baş naziri dəyişir, bir ayrısı istefa verir. Hardasa parlamenti buraxırlar - prezidentlə qanun lahiyəsində sözləri çəp gəldiyi üçün. Qanun da bizim ölçülərlə elə gülməli qanundur ki... Nə bilim, hansısa həmkarlar haqda qanun... Hətta Türkiyə kimi avtoritar ölkədə hakim partiyanın nümayəndəsi olan baş nazir istefaya getdi. Bizdə isə hökumətdə axırıncı istefa... 17 il qabaq olub! Gərək adamları qovasan. Tutub pulunu alasan. Əmlakını müsadirə edəsən. Yalnız bundan sonra adamlar vəzifədən, kreslodan qopurlar. Ayrı cür alınmır. Elə nazir var ki, onu işdən çıxartmaq nazirliyin özünü ləğv eləməkdən daha çətindir.

Dünən uşaq məktəbdən gələndə yolda mənə sual verir: "Ata, Azərbaycan unitar dövlətdir, yoxsa federativ?". Bir vaxt bu mövzuda yazdığım üçün cavabım hazır idi, necə deyərlər, bədahətən dedim: "Bala, bizdə bunların heç biri deyil. Bizim dövlət quruluşunun dünyada analoqu yoxdur. Bizimki dekorativ dövlətdir". Hər yer dekorasiyalarla örtülübsə, ölkə bir tragikomediya səhnəsinin dekorlarına bürünübsə, buna ayrı nə ad qoyasan? Bir ölkədə deputatxana üzvü "Mən ayrı millətdənəm, sizə dəxlim yoxdur" deyirsə (Yevda Abramov adlı deputat), bu dövlətin siyasi sistemi nədir? "Baş nazir bəlkə də ölüb, özünə demirlər ki, pis olar" - bu, bir milli folklor nümunəmizə dönübsə, zibilxananın harasını uçurub altında ölsək məsləhətdir? Sözgəlişi, bayaq haqqında yazdığım Türkiyə baş naziri Davudoğlu istefa çıxışında "Ölkəmin bütün bölgələrində oldum, 24 əyaləti qarış-qarış gəzdim" tipli cümlə işlətdi. Bizim baş naziri axırıncı dəfə Qaradağdan o yana çıxan görən adama 4-cü dərəcəli Vətənə xidmət medalı veriləcəkdir. Üstəlik, çıxsa nə olacaq, çıxmasa nə olur?

Qışda camaat bir az qımıldanmışdı, yarısına soğan əkməyi məsləhət gördülər, yarısını da polisə işə düzəltdilər. Uğurlu proqramdır. İndi polislər soğan əkənlərə və özləri özlərinə nəzarət edib yaşayırlar. Düzdür, hərdən soğan əkənlər müqavimət göstərir, polis maşınına minib getmək istəmirlər. Ancaq bunlar müvəqqəti çətinliklərdir. 20 ildir bütün ölkə divarlarına asılan şüardakı "müvəqqəti çətinlik"dən.

İnternetdə zibil toplamaq xəstəliyinin elmi adını da tapdım. Sən demə, bunu ünlü filosofun "şərəfinə" Diogen sindromu adlandırırlar. *(Yazıq Diogen... Məncə, bu "qiymətə" qəti layiq deyil. Adam sadə həyat yaşayıb, çəlləkdən özünə mənzil düzəldib. Bu sindroma yoluxanlar isə əksinə, hər şeyi evə yığır).* Bu psixi pozuntuya düçar olanların xarakter cizgiləri "sosial izolyasiya, özünə həddən artıq diqqətsiz, pinti yanaşma, apatiya, hər cür lazımsız əşyanı toplamaq" imiş. Ən əsası, bu adamlarda abır-həya hissi, utanmaq-filan olmurmuş!

**Necə tanış mənzərədir...**

# Türkiyə siyasətində aysberqin görünməyən tərəfi

**Türkiyənin baş naziri Əhməd Davudoğlunun istefası məsələsi ətrafında müzakirələr davam edir. Artıq AKP-nin 22 may növbədənkənar qurultayı ərəfəsində yeni baş nazir postuna adlar da hallanır. Onların sayı hələlik 7-dir. Ancaq müşahidəçilər əmindir ki, Davudoğlunun xələfi ondan xeyli zəif bir fiqur olacaq və faktiki, prezident Rəcəb Tayyib Ərdoğanın kölgəsində qalacaq.**




## Davudoğlunun "başı"nı Putin istəyib - şok iddia

### Baş nazirin istefasını zəruri edən ilginc səbəblər barədə; Əhməd Davudoğlunun siyasətdən də getmək niyyəti əlavə suallar doğurub; Ankara-Moskva münasibətlərində ılıqlaşma gözlənilirmi?..

Səbəblər barədə müəyyən mülahizələr artıq səslənib. Aparıcı motiv budur ki, Ərdoğan güclü xarizmatik lider olaraq, ölkənin şəriksiz liderliyinə iddialıdır və partiyadaşı olsa belə, yanında ikinci güclü fiqurun olmasını arzulamır. Təsadüfi deyil ki, baş nazir olanda da Ərdoğanın yanında zəif prezident Abdulla Gül idi. İndi özü prezident ikən yenə zəif və "sözə baxan" baş nazir arzusundadır.

Məsələni aktual edən detallardan biri də şübhəsiz ki, cənab Davudoğlunun personası, yəni prezident Rəcəb Tayyib Ərdoğan yanında yetərincə onun müstəqil statusa, geniş manevr imkanların malik olmasıdır. Bütün hallarda Ə.Davudoğlunun baş nazirlikdən və maraqlıdır ki, həm də siyasətdən getməyə hazırlaşması Türkiyə daxili və xarici siyasətində hansısa mərhələnin qapanmaq üzrə olması qənaətini yaradır.

***

Bu xüsusda Davudoğlunu istefaya vadar edən daha bir qiymətli məqama toxunmaq yerinə düşər. Sirr deyil ki, indiki baş nazir prezident Ərdoğanla müqayisədə həmişə Kremlin daha güclü hədəfində olub. Vurulan "Su-24" təyyarəsinə görə ötən ilin noyabrın 24-dən kəskinləşmiş Moskva-Ankara münasibətlərini nəzərdə tuturuq. Davudoğlunun istefasına aparan daha bir səbəb kimi bu detal da diqqətə alınmağa layiqdir, bizcə.

Məlumdur ki, həmin insidentə görə Əhməd Davudoğlu baş nazir kimi məsuliyyəti şəxsən öz üzərinə götürmüş, hətta "vur" əmirini özünün verdiyini bəyan eləmişdi. Düzdür, prezident Ərdoğan da Türkiyə Hava Qüvvələrinin addımını müdafiə eləmişdi, lakin tezliklə o, situasiyanı yumşaltmağa çalışmış, bir neçə dəfə üzrxahlığa yaxın formada "belə olmasını heç istəməzdik" söyləmiş, Moskvaya barışıq təklifləri eləmişdi. Sonuncu belə bir barışıq jestini o, Vaşinqtonda olarkən dilə gətirmişdi.

Ancaq Rusiyanın sərt reaksiyasına səbəb olan "Su 24" insidenti ilə bağlı indi də, o vaxt da ən prinsipial və güzəştsiz mövqe sərgiləyən yeganə və ən yüksək çinli Türkiyə rəsmisi Davudoğludur. Bu amil sözsüz ki, Kreml rəhbərliyinin diqqətindən yayına bilməzdi. Üstəlik, münasibətlərin kritik olduğu dönəmdə baş nazir Bakıya səfəri zamanı da çox sərt və Moskvanı qəzəbləndirən mövqe ortaya qoymuşdu. Əhməd Davudoğlunun Bakıda Qarabağla bağlı Azərbaycana hər cür dəstək vəd eləməsi şimal qonşumuzda başqa yandan qıcıq yaratmışdı.

***

Ayrı sözlə desək, təyyarə insidentinə görə pozulmuş münasibətlərdə Davudoğlu amili daim özünəməxsusluğu ilə seçilib yazsaq, yanılmarıq. Bir daha vurğulayaq ki, istefada Ərdoğan-Davudoğlu münasibətlərinin mərkəzdə durması fikri aparıcı olaraq qalır. Ancaq siyasətin aysberq kimi geniş ictimaiyyətə görünməyən, "suyun altında qalan" tərəfi də var. Nədən söhbət gedir?

Əlbəttə ki, Ərdoğan həmişə bunun da fərqində olub ki, Moskva 24 noyabrdan sonra Davudoğlunun personasına onun özü ilə müqayisədə daha qıcıqlı yanaşır. İstisna deyil ki, baş nazirin "qurban verilməsi"ndə bu faktor özəl təsir göstərib. Bəzi iddialara görə, iki ölkənin barışığı yönündə zaman-zaman aparılan konfidensial danışıqlarda da Davudoğlunun prinsipiallığı tormozlayıcı rol oynayıb.

**Barışığa yönəlik danışıqlar, ikitərəfli komissiyaların işləməsi barədə "Yeni Müsavat" olaraq zamanında yazmışıq və hətta prosesin içində Azərbaycan amilinin də rol aldığını qeyd eləmişik. Məsələn, 4 fevral tarixli "Rusiya və Türkiyə anlaşma üzrə - gizli Azərbaycan faktoru.." sərlövhəli yazısında vurğulamışdıq: "Bu xüsusda əldə elədiyimiz və olduqca şok effektli, dəqiq, eyni zamanda da mötəbər bilgilərə görə, üzümüzə gələn günlərdə böhran yaşayan Rusiya-Türkiyə münasibətləri üzdəki gərginliyə rəğmən, düzələcək. Özü də təmaslarda və vasitəçilikdə Azərbaycan faktorunun da yer aldığı deyilir. O da bildirilir ki, təmaslar artıq bitmək üzrədir və qısa zamanda hər şey yoluna qayıdacaq. "Təbii ki, bunu Qərb istəmir. Amma hər iki ölkənin hökumətləri yaxşı anlayır ki, savaş Rusiya və Türkiyə dövlətləri və xalqlarına yalnız fəlakət gətirəcək və nəticə etibarilə "üçüncü qüvvə" yaranmış vəziyyətdən ən çox siyasi və iqtisadi divident götürəcək"** - əlavə edib mötəbər mənbə. Təbii ki, "üçüncü qüvvə" dedikdə ABŞ və Avropa Birliyi, daha çox da Birləşmiş Ştatlar nəzərdə tutulur. Çünki Moskva və Ankaranın noyabrın 24-dək bütün sahələr üzrə isti səciyyə daşımış münasibətləri, qardaş ölkənin Kremlə qarşı iqtisadi sanksiyalara qoşulmaması və regionda daha müstəqil siyasət yürütməsi Qərbin bölgəyə yönəlik strateji hədəfləri ilə düz gəlmir".

Lakin bəllidir ki, gözləntilər doğrulmadı. Bunun da əsas səbəbi kimi anlaşma əldə olunmaq ərəfəsində baş nazir Əhməd Davudoğlunun Türkiyədəki mitinqlərin birində etdiyi və münasibətləri daha da gərginləşdirən çıxışı göstərilir. Həmin çıxışda o, Rusiyanın, Pitinin ünvanına növbəti sərt ifadələr işlədərək, anlaşma ilə bitmək üzrə olan bir prosesi sıfırlamış, bununla Ərdoğanın da siyasi kursu əleyhinə getmişdi.

Əlavə edək ki, Rusiya siyasi çevrələrində Davudoğlu Ərdoğanla müqayisədə daha çox "Amerikanın və Avropanın adamı" sayılır və belə hesab edilir ki, Qərb məhz onun əli ilə Ankara-Moskva barışığına əngəl yaratmağa çalışır.

***

Yəni baş nazirin "başını" əslində Putin də istəyə bilərdi - münasibətlərdəki gərginliyi heç olmasa, ölü nöqtədən çıxarmaq naminə. Sadəcə, bu istək Ərdoğanın cari siyasi maraqları ilə də üst-üstə düşür. Davudoğlunun baş nazirliklə yanaşı, siyasətdən də getmək qərarı bu yöndə təxminləri gücləndirir ki, zəiflətmir.

***

Rusiya-Türkiyə yaxınlaşması isə indi heç vaxta olmadığı qədər hər iki tərəf üçün güclü imperativə çevrilib. Əgər Rusiya üçün bu barışıq ilk növbədə getdikcə ağırlaşan iqtisadi durum və Qərbin izolyasiyasının siyasi-iqtisadi təsirlərini azaltmaq səbəbi ilə zəruri görünürsə, qardaş ölkə daha çox iqtisadi maraqlar və artıq başlamış turizm mövsümünə görə buna ehtiyac duyur. Çoxmilyardlıq Akkuyu AES-in inşası, "Türk axını" kimi layihələrin donunun açılması zərurəti də öz yerində.

Davudoğlunun qəfil istefası isə rus pilota atəş açdığı deyilən "boz qurdçu"nun həbsinin ardınca Ankaradan Kremlə ikinci xoşməramlı jest təəssüratı yaradır. Bu jest-mesajlar Rusiyanın "könlünü almaq" üçün kifayət edəcəkmi? Söyləmək çətindir.

Bu yerdə onu da yada salaq ki, Rusiya rəsmilərindən biri demişdi ki, Davudoğlunun istefası Ankara-Moskva münasibətlərinin durumuna ciddi təsir etməyəcək, çünki "Türkiyə siyasətinin başında hələ ki Ərdoğan dayanır". Hərgah, Davudoğlu mövzusuna Moskva hələ ki ən yüksək səviyyədə reaksiya bildirməyib.

Bir şeyi dəqiqliklə söyləmək olar ki, güclü baş nazirin gedişindən sonra Rusiya-Türkiyə münasibətlərinə cavabdehlik Ankara tərəfdən müstəsna olaraq prezident Ərdoğanın üzərində qalacaq və onun manevr imkanları bir qədər daralmış olacaq. Yaxşıdır, yoxsa pis - bunu zaman göstərəcək.

❑ **Analitik xidmət**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 101 (6422) 11 may 2016

# ABŞ-dan Ermənistana zərbə: "İşğal olunmuş ərazilər Azərbaycanın nəzarətinə qaytarılacaq"

## 22 illik atəşkəs müddətində masa üzərinə çıxarılan təkliflər: onların hansı Azərbaycanın maraqlarına cavab verir? - Ekspertlər deyir ki...



**Mayın 11-də ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, Goranboy rayonu Tapqaraqoyunlu kəndinin qərbindən keçən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.**

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisindən isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik, onun səhra köməkçisi Piter Svedberq və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin ofisinin fəaliyyətinə birbaşa məsul olan nümayəndəsi Tomas Lenk keçirəcəklər.

2-5 aprel tarixlərində Azərbaycan ordusu tərəfindən zərbələrə məruz qalan düşmən ölkə Rusiyadan alınan yeni silah-sursata, həmçinin Moskvanın himayəsinə arxayın olaraq Azərbaycanı hədələməyə cəsarət edir. Bir neçə gün əvvələdək vəziyyətin ağırlığından, dünyanın dəstəyindən məhrum olmalarından şikayətlənib vay-şivən qoparan ermənilər indi Azərbaycanı atom bombası ilə qorxutmaq istəyir. Ermənistanın keçmiş baş naziri, deputat Qrant Baqratyan açıq şəkildə bildirib ki. Ermənistanın nüvə silahı var və onu "Ermənistanın iki qonşusunun sonrakı hücumlarından və təcavüzündən müdafiəsi üçün yeganə vasitə" adlandırıb.

Aprel döyüşlərindən sonra müşahidə olunan vəziyyətin gərginliyi, hər an böyük savaşın başlanacağı 2-3 ay əvvəllə müqayisədə daha inandırıcı görünür. Səslənən bəyanatlar da bunu təsdiqləyir. "Moldovadakı Dnestryanı münaqişədə 1992-ci ildən atəşkəsə əməl edilsə də, eyni sözü Ermənistan və Azərbaycan arasındakı Dağlıq Qarabağ münaqişəsi barədə deyə bilmərik". Bu barədə ATƏT Parlament Assambleyasının Siyasi məsələlər və təhlükəsizlik komitəsinin məruzəçisi Marqarita Cederfeltin "Neweurope" portalındakı "Qaçqın böhranı ilə mübarizə aparmaq müfəssəl təhlükəsizlik yanaşması tələb edir" başlıqlı yazısında deyilir (APA). Yazıda bildirilir ki, Qarabağ münaqişəsi zonasında hərbi eskalasiyanın artması "dondurulmuş" adlandırılan münaqişələrin heç də dondurulmuş olmadığını və hərbi toqquşmaların hər an baş qaldıra biləcəyini göstərib. Cederfelt qeyd edib ki, ATƏT PA-nın Tbilisidə keçiriləcək illik sessiyasında bu məsələlər müzakirə ediləcək.

Bu arada Ermənistan parlamenti özünün 10 maya təyin etdiyi fövqəladə sessiyasının gündəliyindən Qarabağdakı qondarma rejimin müstəqilliyinin tanınması məsələsini çıxarıb. Azərbaycana qarşı təhdid vasitəsinə çevirmək istədikləri bu layihə əslində işğalçı ölkənin əleyhinə işlədi. ABŞ-ın son günlər sərgilədiyi mövqe Ermənistan üçün soyuq duş təsiri bağışlayır. Rusiyanın ardınca ABŞ da bəyan edib ki, Qarabağın müstəqilliyindən söhbət gedə bilməz.

"İşğal olunmuş ərazilər Azərbaycanın nəzarəti altına qaytarılacaq. Heç bir ölkə Dağlıq Qarabağı tanımır". Bunu virtualaz.org-a ABŞ-ın Azərbaycandakı səfirliyindən Ermənistanın qondarma Dağlıq Qarabağ rejimini tanıya bilməsi məsələsinə münasibət bildirərkən deyiblər. Səfirlikdən bildiriblər ki, Dağlıq Qarabağın yekun statusu münaqişənin hərtərəfli nizamlanması kontekstində müəyyən olunacaq ki, buna həm də işğal olunmuş torpaqların Azərbaycanın nəzarətinə qaytarılması daxildir. **"Münaqişənin uzunmüddətli nizamlanmasına nail olmaq üçün biz tərəfləri xoş məram göstərməyə və danışıqlar masası arxasına oturmağa çağırmaqda davam edirik"**, - deyə səfirlikdən vurğulayıblar.

Ermənistan rəhbərliyi ölkəsini dalana soxduğu bir situasiyada savaş ritorikasını körükləməklə, üstəlik, erməni xalqının və ordusunun "qəhrəmanlığı" haqqında nağıllar uydurmaqla vəziyyəti öz xeyrinə dəyişmək, 2018-ci islədək postunda qalmaq istəyir. Ancaq Azərbaycan dəfələrlə bəyan edib ki, onun səbri tükənməz deyil və işğalı ərazilərimizi şərtsiz tərk etməlidir.

Azərbaycan ərazilərini işğalda saxlayan düşmən tərəf isə bizimlə dolma müharibəsi aparır, üstəlik, səngər qazıntısı zamanı tapılan tarixi abidələrimizi "erməni xalqının nümunələri" kimi təqdim etməklə beynəlxalq rəyi çaşdırmağa yönəlik mənasız cəhdlər edir.

Rusiya yaxın ərəfədə danışıqlara start veriləcəyinin anonsunu versə də, hələlik start günü barədə müfəssəl məlumat yoxdur. Masa üzərinə hansı sənədin qoyulacağı da sual doğurur. Məsələ burasındadır ki, Bakı danışıqların davamına etiraz etməsə də, düşmənin aqressiyasının qarşılığında daha sərt mövqedən çıxış etməyə haqlı olaraq üstünlük verir. Qarşıdan isə 1994-cü ildə imzalanmış atəşkəs haqqında razılaşmanın 22-ci ildönümü gəlir. Bundan sonra hansı hadisələrin cərəyan edəcəyi suallar doğurur. Bəzi müşahidəçilər müharibənin "Formula 1" yarışlarından sonra başlaya biləcəyini ehtimal edir. Ola bilsin, Rusiya da məhz danışıqları həmin ərəfədə təzələmək, bununla erməniləri gərginlikdən sığortalamaq istəyir. Bundan əvvəlki danışıqlarda hansı sənədlərin masa üzərinə qoyulduğu, hansının Azərbaycan üçün daha məqbul olduğunu araşdırdıq.




**Politoloq Arzu Nağıyevin sözlərinə görə, müxtəlif illərdə qəbul edilən bu sənədlərin arasında prinsipcə elə də ciddi fərq olmayıb:** "Sadəcə olaraq, bəzi detallarda dəyişikliklər edilib. Belə ki, Laçın dəhlizi, Kəlbəcər keçidi, Mehri yolu və s. kimi detallar yenidən işlənib. Təbii ki, Rusiyanın sülhməramlı qüvvələri məsələsi də danışıqlar predmeti olub və qəbul edilməyib. Bundan başqa, əsas məsələ təbii ki, regionda nüfuz məsələsi olub. Yəni Paris, Ki-Uest, Madrid prinsiplərində əsas prioritet Qərbdə idisə, Kazan prinsipində Rusiyanın adı daha çox hallanır. Əsas məsələ Azərbaycanın ərazi bütövlüyüdür. Qərb əvvəllər hər bir millətin öz müqəddəratını həll etmək hüququ olduğunu qabardaraq müstəqilliyi ikinci plana çəkirdi. Lakin Avropada baş verən proseslər və separat meylli təkliflər artıq onları da düşünməyə vadar edir ki, ilk öncə suverenliyin bərpasının vacibliyi vurğulanmalı, sonradan müqəddərat məsələsinə, ən yüksək status məsələsinə qayıdılmalıdır".

**Ekspert hesab edir ki, hazırda Azərbaycanı razı sala biləcək variant da budur:** "Ərazi bütövlüyümüzün tam təmin edilməsindən sonra digər məsələlərə, o cümlədən Dağlıq Qarabağın status məsələsinə qayıtmaq lazımdır. Minsk Qrupu ancaq sülhdən danışır. Sülh artıq hər gün atəşkəsin pozulması ilə müşayiət olunur, itkilər var. Danışıqlara masasına boş yerə əyləşməyin artıq faydası yoxdur. Çünki bu, erməni rəhbərliyini qane edir, status-kvo saxlanılır, problem öz həllini tapmır, hakimiyyət isə bununla manipulyasiya etməklə xalqı nəzarətdə saxlayır. Təbii ki, bu da effekt vermir. Son aprel hadisələri bir daha göstərdi ki, güc nümayiş etdirməklə Ermənistan rəhbərliyini danışıqlar masasına əyləşməyə məcbur etmək lazımdır. Düşünürəm ki, Azərbaycan üçün normal formul işğal olunmuş rayonların boşaldılması, qaçqınların öz yerlərinə qaytarılması, status məsələsi üçün referendum və ya hansısa formada sorğunun keçirilməsi, son anda da BMT-nin və ya ATƏT-in mandatına uyğun olaraq sülhməramlı qüvvələrin yerləşdirilməsindən ibarət ola bilər".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu isə "Yeni Müsavat"a açıqlamasında xatırlatdı ki, 22 il ərzində Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı xeyli həll planı irəli sürülüb:** "1990-cı illərin ortalarında "mərhələli həll planı", daha sonra "paket həll planı" irəli sürüldü. Üçüncü bir həll planı da var idi: "Ümumi dövlət prinsipi". Azərbaycan hakimiyyəti "mərhələli həll planı"na razılaşdı. Çünki bu plana görə ilkin addım kimi işğal altındakı torpaqlar boşaldılmalı, qaçqınlar geri qayıtmalı və yalnız bundan sonra Dağlıq Qarabağın statusunu müəyyənləşdirən danışıqlar başlamalı idi. Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyan da sonda bu planı qəbul etməyə hazır olduğunu bildirdi. Ancaq Rusiyadakı siyasi və hərbi dairələrin dəstəyi ilə Levon Ter-Petrosyan hakimiyyətdən devrildi". **Politoloq qeyd etdi ki, o illərdə Rusiya-Azərbaycan münasibətləri soyuq idi:** "Moskva Azərbaycan neftinin Bakı-Tiflis-Ceyhan boru xətti ilə Türkiyə üzərindən Avropa bazarlarına daşınmasını istəmirdi. Ona görə də Moskvada düşündülər ki, Dağlıq Qarabağ problemi həll olunsa, bu, Azərbaycanın bölgədəki mövqelərini gücləndirəcək, Qərbin Cənubi Qafqazda rolu artacaq və Ermənistan Azərbaycan və Türkiyə ilə əməkdaşlığa başlayacaq. Ona görə də Rusiyadakı dairələrin dəstəyi ilə Ermənistanın hazırkı və keçmiş prezidentləri Serj Sərkisyan və Robert Köçəryan Levon Ter-Petrosyanı hakimiyyətdən devirdilər. Sonrakı illərdə irəli sürülən Dağlıq Qarabağ münaqişəsinin "paket həll planı"na isə Azərbaycan razılaşmadı. Çünki bu planda rayonların işğaldan azad olunması Dağlıq Qarabağın statusunun müəyyənləşməsi ilə eyni vaxtda müəyyənləşdirilməli idi. "Ümumi dövlət" prinsipi də Azərbaycanın ərazi bütövlüyünü şübhə altına alırdı. Daha sonra həll planları müxtəlif şəhərlərin adı ilə hallanmağa başladı. Əgər Azərbaycan prezidentləri Parisdə görüşürdülərsə və Fransa prezidenti həll planı irəli sürürdüsə, buna "Paris planı" və ya prezidentlər Kazanda görüşüb, onlara yeni plan təqdim edilirdisə, buna da "Kazan planı" adı verilirdi".

**E.Şahinoğlu dedi ki, 2001-ci il daha yaddaqalan olub:** "Ona görə ki, bu ildə Azərbaycan və Ermənistan prezidentləri əvvəlcə Parisdə, bir ay sonra isə ABŞ-ın Ki-Uest şəhərciyində görüşdülər. Əvvəlcə Fransa prezidenti Jak Şirak təşəbbüsü ələ aldı və Parisdə Azərbaycan və Ermənistan prezidentlərinə "həll planı" təklif etdi. Daha sonra Vaşinqton Azərbaycan və Ermənistan prezidentlərini Ki-Uestə dəvət etdi. Burada da bir neçə gün danışıqlar aparıldı. Ancaq hər iki görüşdən nəticə çıxmadı. Çünki bu planlarda da konkretlik yox idi. Daha sonra təşəbbüs Rusiya hakimiyyətinə keçdi. 2011-ci ildə Rusiyanın Kazan şəhərində prezidentlərin görüşü keçirildi. Rusiyanın keçmiş prezidenti Dmitri Medvedyev Dağlıq Qarabağ münaqişəsinin həlli üçün xeyli fəallıq göstərdi, prezident olduğu müddətdə 10 dəfə Azərbaycan və Ermənistan prezidentlərini bir araya gətirdi. Bu görüşlərin kulminasiya nöqtəsi Kazanda oldu. Medvedyev Kazanda prezidentlərə konkret "həll planı" təqdim etdi. Bu planda bütün müddəalar Azərbaycanın maraqlarına uyğun idi. Çünki bu plana görə erməni separatçıları işğal etdikləri bütün əraziləri boşaltmalı idilər. Ancaq statusun müəyyənləşməsini göstərən mexanizm "Kazan prinsipləri"nin kağız üzərində qalmasına şərait yaratdı".

**E.Şahinoğlunun sözlərinə görə, əslində "Kazan prinsipləri" ilə "Madrid planı" - ATƏT-in 2009-cu ilin noyabrında İspaniyanın paytaxtı Madriddə keçirilən Nazirlər konfransında irəli sürülən prinsiplər və ya "Genişləndirilmiş Madrid planı" arasında böyük fərq yoxdur:** "Bu planlarda da 5 rayonun - Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlının qısa zamanda, 2 rayonun - Kəlbəcər və Laçının bir müddət sonra boşaldılması nəzərdə tutulur. Son illərdə irəli sürülən həll planlarında məsələni mürəkkəbləşdirən yenə statusdur. Ermənistan hakimiyyəti istənilən sənəddə statusun müəyyənləşdirilməsini nəzərdə tutan referendum tarixinin göstərilməsini istəyir. Bu prinsipə isə Azərbaycan razılaşa bilməz. Rəsmi Bakı statusun müəyyənləşməsinin əleyhinə deyil. Ancaq bundan əvvəl rayonlar boşaldılmalı, qaçqınlar geri dönməli, kommunikasiya xətləri açılmalı, bölgədə sülhməramlı qüvvələr yerləşdirilməsi, məhz bu addımlar atılandan sonra Dağlıq Qarabağda yaşayan azərbaycanlılarla ermənilər arasında müzakirələr başlamalıdır. İrəvan isə bu modelə razılaşmır. Ona görə də 22 ildir danışıqlar nəticə vermir".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY




## “Atabank”müsadirə etdiyi villanı satışa çıxardı-700 min manat

**“Atabank”ın kredit borcuna görə müsadirə etdiyi və satışa çıxardığı daşınmaz əmlakların qiymətləri məlum olub.**

Bankdan fins.az-a verilən məlumata görə, müştəri gözləyən əmlakları almaq üçün minimum 4 min manat, maksimum isə 700 min manat pul vermək lazımdır.

Ən ucuz əmlak Tərtər rayonunun Borsunlu kəndində satılan 3,81 hektar torpaq sahəsidir. Ərazi cəbhə bölgəsinə yaxın yerləşdiyi üçün torpağın hektarına 1050 manat ödəməklə onu almaq olar.

Bir qədər artıq xərc çəkmək istəyənlər Lənkəranda fərdi ev də ala bilərlər. Rayonun Girdəni kəndindəki həyət evi 10 min manata satılır.

“Atabank”ın təklif etdiyi ən bahalı daşınmaz əmlak isə Bakıda yerləşən villadır. Bu obyekt paytaxtın Binəqədi rayonunda, Rəsulzadə qəsəbəsindədir və qiyməti 700 min manatdır.

## Dövlət Neft Fondu varlanıb




**Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) aktivlərinin 2016-cı ilin sonuna azalması, fondun büdcəsində isə kəsirin yaranması gözlənilmir. Bunu “Report”a açıqlamasında ARDNF-in icraçı direktoru Şahmar Mövsümov bildirib. “Bu ilin I rübündə Dövlət Neft Fondunun ümumi vəsaitləri 2% artıb. Əgər proqnozlarımızla ilin sonuna təsdiq olunmuş büdcəyə uyğun olaraq, defisitlə bitirməli idiksə, artıq qiymətin müəyyən artımı göstərir ki, ilin sonuna yaqin ki, Neft Fondunun vəsaitləri azalmayacaq, yəni kəsir olmayacaq” deyə, Ş.Mövsümov qeyd edib.**

Qeyd edək ki, 2016-cı ilin yanvar-mart ayları ərzində ARDNF-in büdcə gəlirləri 2 023,1 mln. manat, büdcə xərcləri isə 1 946,7 mln. manat təşkil edib. Cari ilin aprelin 1-nə fondun aktivləri ilin əvvəlinə (33 574,1 mln. dollar) nisbətən 2% artaraq 34 246,0 mln. ABŞ dollarına çatıb.

Azərbaycan prezidentinin 18 mart 2016-cı il tarixli fərmanı ilə Dövlət Neft Fondunun 2016-cı il büdcəsinə edilmiş dəyişikliklərə əsasən, fondun builki büdcə gəlirləri 6 711,564 mln. manatdan 4 578,475 mln. manata qədər azaldılıb, büdcə xərcləri isə 8 181,4 mln. manatdan 10 668,934 mln. manata qədər artırılıb.

Xatırladaq ki, 2016-cı il üçün dəqiqləşdirilmiş dövlət və icmal büdcələrinin hesablanması zamanı xam neftin baza qiyməti 25 dollar/barel götürülüb. Hazırda Azərbaycan neftinin bir barelinin qiyməti 44,7 dollara bərabərdir.

## Bankomatların sayı azalır



**Azərbaycan ərazisində quraşdırılan bankomatların ümumi sayı aylıq müqayisədə 2 ədəd, ilin əvvəlindən isə 134 ədəd (-4,97%) azalaraq cari il aprelin 1-nə 2 560 ATM təşkil edib.**

“Report”un Mərkəzi Banka istinadən verdiyi xəbərə görə, bankomatların 1 421 ədədi və ya 55,5%-i Bakıda, 1 139-u və ya 44,5%-i regionlarda yerləşir. Mart ayında paytaxtda 3 bankomat bağlansa da, regionda bir yeni bankomat quraşdırılıb.

İlin əvvəli ilə müqayisədə paytaxtda bankomatların sayı 5,4% və ya 81 ədəd, regionlarda 53 ədəd və ya 4,5% azalıb.

Hesabata əsasən, cari il aprelin 1-nə ölkədə hər 3,8 min nəfərə bir bankomat düşüb. İlin əvvəlində isə bu göstərici 3,6 min nəfər/ATM təşkil edib.

**Paytaxt Bakı 10 may gününü hər il olduğundan fərqli olaraq, daha sakit və təmtəraqsız keçirir. Belə ki, 2-4 aprel döyüşlərində şəhid olan hərbçilərimizin xatirəsinə hörmət əlaməti olaraq, bu il ölkədə “Gül bayramı” keçirilmədi. Bakının küçələrində də heç bir bayram tədbiri baş tutmadı.**

Formula 1

# “Formula 1” hazırlıqları: hotellər dolub, sakinlər isə evlərini kirayə verirlər

## Paytaxtda görülən hazırlıq və yenidənqurma işləri bütünlüklə iyunun 17-də təşkil olunacaq “Formula 1" Avropa Qran Prisinə yönəlib

Hazırda paytaxtda görülən hazırlıq və yenidənqurma işləri bütünlüklə iyunun 17-də Azərbaycanda ilk dəfə təşkil olunacaq “Formula 1" Avropa Qran Prisinə yönəlib. Formula 1" yarışının keçiriləcəyi yollar artıq təmir olunub, təşkilati işlər həyata keçirilir.

Musavat.com-un müxbiri paytaxt Bakıda “Formula 1" yarışmasına hazırlıq ərəfəsində şəhərin mərkəzindəki yeniliklərlə tanış olub.

Şəhərin mərkəzi küçələrində qızğın iş gedir, yarış üçün tikinti-təmir işləri aparılır. “Formula 1" yarışını izləməyə gələnlər üçün quraşdırılan tribunalara oturacaqlar düzülüb, hər tribunada çəkiliş aparılması üçün məntəqələr quraşdırılıb, ayaq üstə tamaşa etmək istəyənlər üçün yerlər müəyyən olunub və dəmir sədlərlə əsas yoldan ayrılıb. Bəzi yerlərdə isə tamamlanma işləri aparılır.

“Sahil” metro stansiyasının qarşısında yarışmanı ayaqüstə izləmək üçün tamaşaçılara xüsusi yerlər hazırlanır. Aparılan təmir işləri isə həm insan və həm də nəqliyyat sıxlığı yaradıb. “Formula 1" yarışları üçün dəmir sədlər çəkilir.

### Hotel və restoranlar “Formula 1"dən qazanacaq

Bundan başqa, xidmət sektorunda da təşkilati işlər görülməkdədir. Yarışın keçiriləcəyi əraziyə yaxın olan əksər hotel və restoranlarda artıq 17-19 iyun tarixləri üçün boş yer tapmaq mümkün deyil. Bu yarışma həmin ərazidə fəaliyyət göstərən obyekt sahibləri üçün yaxşı fürsətdir.

Bundan başqa, mənzərəsi “Formula 1" yarışının keçiriləcəyi küçələrə açılan hotellər müştəriyə həm də yarışmanı öz hotel otağından izləmək şansı verir. Bu baxımdan ”Formula 1" mənzərəli nömrələrin qiyməti daha bahadır.

“Formula 1" yarışlarının keçirildiyi əraziyə yaxın olan ”Hilton" hotelinə turist axını adi günlərlə nisbətdə daha çoxdur. Biz hoteldə olduğumuz zaman da onlarla turist qeydiyyat şöbəsinin önünə düzülərək hotelə yerləşmək üçün növbə gözləyirdi. “Hilton”un “Formula 1" yarışlarının keçirildiyi küçədə olması isə buraya ikiqat üstünlük qazandırır. Belə ki, turistlər hotelin yuxarı mərtəbələrində həm dincələ, həm də yarışa baxa bilər.

### Yarış günləri üçün yer tapılmır

Elə bu səbəbdən də yarış günləri üçün hotelin qiyməti də dəyişib. Yuxarı mərtəbələrdəki mənzərəli otaqların qiyməti daha bahadır. Müştəri adı ilə biz də “Hilton” hotelinin ən lüks otağına baş çəkib, şəhərin möhtəşəm mənzərəsini izlədik. Hotelin 20-ci mərtəbəsində iki nəfərlik otağın bir günlük qiyməti 720 manatdır.

Bu qiymətə gündəlik yemək də daxildir. Üstəgəl, “Formula 1" yarışlarını pulsuz izləmək imkanı var. ”Hilton" hotelində ən sadə yer isə 300-350 manatdır və bu qiymətə yemək xərcləri daxil deyil.

Qeydiyyat şöbəsindən bizə bildirdilər ki, 17-19 iyun tarixinə olan bütün yerlər tutulub. Bu da “Formula 1" yarışlarının keçirilməsi ilə əlaqədardır.

### Sakinlər də “Formula 1"ə baxan eyvanlarını kirayə verir

Evləri “Formula 1" yarışlarının keçiriləcəyi küçələrə baxan sakinlər də bu beynəlxalq tədbirdən karlı çıxmaq niyyətindədir. Belə ki, bu cür şansı olan vətəndaşlar evlərini və ya evin eyvanını üç günlük turistlərə kirayə təklif edir.

Yarış zolaqlarının yaxınlığında yerləşən binalara baş çəkib qiymətlərlə maraqlandıq. Məlum oldu ki, “Sahil” tribunasına yaxın binalarda 3 nəfər sakin mənzillərini icarəyə verir. Mənzillərin üstünlüyü isə yarışları izləmək üçün yaxşı yerdə olmasıdır. Belə ki, yarış maşınları həmin mənzillərin bir addımlığından keçəcək.




Qiymətlərə gəlincə, adının çəkilməsini istəməyən ev sahibi “Formula 1" yarışlarının keçirildiyi 3 gün üçün 1000 manat pul istədiyini bildirdi. Onun dediyinə görə, bu xərclərin içində qonağına həm yarışı izləmək, həm də gecələmək imkanı verir: **”Yarış üçün bilet 900 manatdır, mən isə evimi 1000 manata kirayə verirəm. Yarışı izləyən qonaq burada ikibaşlı udur. Həm gecələsin, həm yarışa baxsın, lazım gəlsə, samovar çayı da verərəm".**

Görünən odur ki, ən kiçik obyekt sahibindən iri hotellərə qədər hər kəs bu yarışdan qazanclı çıxmağa çalışır. Elə bu beynəlxalq tədbirin Azərbaycanda keçirilməsində bir məqsəd də turizmi inkişaf etdirmək və xidmət sektoruna gəlir qazandırmaqdır. Bu məqsədə nə dərəcədə nail olmaq isə həmin hotel və restoranların xidmət səviyyəsindən və biznes bacarıqlarından asılı olacaq.



















❑ **Məğrur MƏRD**
❑ **Fotolar müəllifindir**

# “Qatarda” sağ qalan sonuncu adamla söhbət...

**Yolum Quba rayon mərkəzinin 17 km-liyində yerləşən İkinci Nügədi kəndinədir. Təbiətin gözəllikləri bir-birinə qarışıb: göz oxşayan yaşıllığı şıdırğı yaz yağışı öz ağuşuna alır, ardınca günəş doğur... Birinci Nügədinin girişində isə göy qurşağı bu füsunkar mənzərəyə əlavə rənglər qatır. Ürəyim rahatlanır, bu, yaxşılığadır, “inşallah, peşman qayıtmaram” deyirəm...**

İkinci Nügədi o qədər böyük kənddir ki, məhəllələrə bölünür, biz də altıncı məhəlləni soruşuruq - böyük sənətkar, qocaman səhnə ustası Məcnun Hacıbəyovun qapısını. “Qatarda” sağ qalan sonuncu adam da demək olar ona. Yaşar Nuri, Həsən Əbluç, Hamlet Xanızadə, Ələsgər Məmmədov və “Fatı”- Məcnun Hacıbəyov... Amma təkcə bu tamaşa deyil. “Kişilər”, “Sarıköynəklə Valehin Nağılı”, “Göz həkimi”...nəhayət, “Yarımştat”. Bir-birindən maraqlı obrazlar yaradan və sevilən aktyor illərdir ki, gözdən-könüldən iraq düşüb, bugünlərdə yanlış xəbər yayılmasaydı, bəlkə yenə də yada düşməyəcəkdi...Yeri gəlmişkən, nigarançılığım tək ondandır ki, ziyarətinə getdiyim insan bugünlərdə ölüm xəbərini yayan həmkarlarımın heyfini məndən alar, görüşümüz, söhbətimiz baş tutmaz.





# “17 ildir təkəm...”

## Məcnun Hacıbəyov: “Arvad paltarı geyinib səhnəyə çıxanlar var ha...”

***

...Yarım saatdır həyət darvazasını döyürük. Məcnun müəllimin əmisi oğlu İlham bəylə bərabər. Ev və mobil telefonuna etdiyimiz zənglər də cavabsız qalır. Qonşu da köməyini əsirgəmir. İlham bəy deyir ki, ağsaqqal bir az zəif eşidir, bəlkə yatıb, ona görə reaksiya yoxdur. Əlacsız qalıb hündür hasarı o üzə aşıb həyətə girir. Darvazanı açır, mən də içəri daxil oluram. Bu dəfə də ikiqatlı evin giriş qapısı bağlı...Döyürük, fayda yox, pəncərələri tıqqıldadırıq, yenə də səsimizə səs vermir. Belə olduqda uzun bir ağac götürüb ikinci mərtəbənin pəncərəsini döyəcləyirik və... Məcnun kişi pəncərədə görünür, daha sonra aram-aram aşağı düşüb qapını açır. Zəhmli insanın çöhrəsinə gülüş qonur, mehribanlıqla xoşgəldin edir və üreyimdəki ağırlıq bir anda qeybə çəkilir.

Demə, ikinci mərtəbədəki otaqda oturub futbola baxırmış. “İngilislər oynayır”mış. İçəri girən kimi qazı yandırıb çay qoyur, “əsas çaydandır” deyərək. Söhbətə başlayırıq...

***- Məcnun müəllim, necəsiniz?***

- Yaxşı da deyiləm, pis də deyiləm. Mənim bir qardaşım vardı, maşın vurdu, öldürdü... Hacıbaba Hüseynovun birinci tələbəsiydi, yaxşı muğam oxuyardı. Tiflisdən-"Şeytanbazarı"ndan ona azərbaycanlı qız aldıq. Qayınatası onu çox istəyirdi, yaxşı oğlan idi. 69 yaşında rəhmətə gedəndə həkim gəlir ki, “haran ağrıyır?” Deyir, “heç yanım ağrımır, amma yaxşı deyiləm”. İndi mən də eləyəm. Heç yanım ağrımır, ancaq nəsə yaxşı deyiləm. Bir az başım hərlənir, onu da bilirəm nədəndir, qan yaxşı işləmir. İnşallah, bu yaxınlarda oğlum məni aparacaq Bakıya, müayinəyə. Həkimim var da mənim, baxacaq, görək nədir? Ümumdünya Kardiologiya Birliyinin üzvüdür, çox yaxşı həkimdir. Mən ürəyimdən müalicə olunmuşam. Ancaq iki ildir onun yanına getmirəm.

***- Bəs bu, günlərdə yayılan o xəbər nə idi? İnşallah, ömrünüz uzanar...***

- Mən bizim xalqın xarakterini müəyyən etməyin yolunu tapmışam. Xalqın xarakterini müəyyən etmək üçün onun atalar sözündən yapışmaq lazımdır. Bizim xalqın da bir kitablıq atalar sözləri var. Deyir ki, “Ələyçinin qıl vərəni”. Bu, qorxulu sözdür. Ya “filankəs ilanı Seyid Əhməd əli ilə tutur”. Bu da dolayı sözdür. Yapon xalqında belə atalar sözü yoxdur. Bizdə elə şeylər var ki, onu atalar sözü ilə müəyyən etmək olur. Yəni “mən demirəm, amma sən de, belə olsun”. Özü deməyə qorxur, özündən acizə fitva verir, yönləndirir ki, filankəsə şər atsın, ya onu dolaşdırsın. Buna da deyirlər “İlanı Seyid Əhmədin əli ilə tutmaq”.

***- “Göz həkimi”ndə, “Qatarda”, “Yarımştat”da, bir çox başqa tamaşalarda bir-birindən gözəl obrazlar yaratmısınız. Lakin sonra teatrda yeriniz göründü...***

- Çıxdım da teatrdan. 2010-cu ildən birdəfəlik uzaqlaşmışam. Ərizə verib çıxmışam. 70 yaşımda məni təzədən işə götürdülər. 4 il də müqavilə ilə işlədim, sonra müqavilənin vaxtı qurtardı. Baxıb gördüm ki, Ağasadıqdan sonra yaşlı aktyorlar içərisində ən çox mən işləmişəm - 75 yaşa qədər. Aktyorlar 70 yaşında teatrdan gedir.

***- Amma dedilər incimisiniz...***

- Mən əvvəllər küsmüşdüm. Sonra barışdım da. Ələbbas Qədirovdan sonra Maqbet Bünyadovu direktor qoydular. Maqbet müəllim 20 il bizdə direktor müavini işləmişdi, sonra onu sirkə direktor apardılar. Ordan çıxarılandan sonra isə teatra direktor gətirdilər. Birinci gün iclas keçirəndə görüb ki, mən yoxam. Soruşub, deyiblər Məcnun ərizə yazıb, çıxıb gedib. Hara? Kəndə. Mənə zəng elədi ki, “gəl teatra”. Geytdim, görüşdük, kabinetin qapısını bağladı, oturub söhbət elədik. Mən başıma gələnləri, Ələbbasla söhbətləri ona danışdım. Dedi, indi mən direktoram, yaz ərizəni, səni işə götürürəm. Baş rejissor Mərahim Fərzəlibəyovu da çağırdı, danışdıq, müqavilə ilə təzədən məni işə götürdü.

***- Və səhnə həyatınız davam elədi...***

- Hə, 3-4 yeni tamaşalarda oynadım. Köhnə tamaşalardakı rollarımı da qaytarıb mənə verdilər. O dövrdə iki dəfə Türkiyəyə getdik, sonra Maqbetin özünü də çıxartdılar.

***- Bəs uzaq bir kənddə, bu səssizlikdə, tənhalıqda darıxmırsınız? Tamaşaçı alqışına adət etmiş bir aktyor üçün belə həyat cansıxıcı deyil ki?***

- Tamaşaçı alqışı üçün...yox, darıxmıram. Düzdür, təkəm mən, həyət-bacada qonşularla fikrimi dağıdıran. Ancaq mən hər gecə Siyavuşla Yaşarı *(Siyavuş Aslanla Yaşar Nurini-E.P.)* yuxuda görürəm. Daha sonra Kamal Xudaverdiyevi, Hacı İsmayılovu, Əli Nuru görürəm. Özü də onlarla bir yerdə tamaşada rol oynayıram, ancaq mən sözlərini bilmirəm.



**“”Məşədi İbad”a nə qədər baxarlar?”**

Elə həyəcan keçirirəm ki... Oyananda ki, mən yuxu görürmüşəm. Şadlanıram yuxu olmağına görə. Mehdi Məmmədovla tamaşa qururuq, amma sözlərini bilmirəm. Yuxunun məğzi niyə belədir, onu başa düşmürəm. Darıxanda belə şeyləri xatırlayıram da. Bu yaşda nə darıxmaq? Mən bundan sonra gedib rol oynamayacağam ki. Oynayaram e, əldən düşmüş bir qocanı, öz xarakterimə uyğun olaraq oynayaram. Ancaq daha o həvəs qalmayıb.

***- Məcnun müəllim, siz sonrakı illərdə fəxri ad almadınız, eləmi?***

- Yox, mən elə əməkdar artistəm.

***- Bu mənada ürəyinizdə nisgiliniz varmı?***

- Xeyr. Mən elə adam deyiləm. Sizə bir söz deyim. Dünən gələnlərə ki, xalq artisti adı verirdilər, tamaşaçılar, kütlə məni tanıyır axı...Bakıda Zərgərpalan küçəsi var ha... Mən həmişə 8-ci km-dən gəlib o yolla teatra gedirdim. Artistlərə ad ki, verirdilər, Zərgərpalanda oturan kişilər, dükanlarda işləyən adamlar, köhnə bakılılar məni saxlayırdılar, “Məcnun müəllim, filankəslərə ad verdilər, sənə niyə vermədilər?” Deyirdim nə bilim, səbəbini bilmirəm. Mənə bu sualı çox verirdilər. Bir dəfə də birisi küçədə məni saxlayıb dedi ki, mən zavod direktoruyam, sənə niyə ad vermirlər? Dedim, hesab edirəm ki, mənə ad veriblər. Əgər siz tamaşaçı kimi mənə niyə ad verilmədiyini soruşursunuzsa, bu, elə mənə ad verilməsi kimi bir şeydir də. Deməli, xalq da mənimlə maraqlanır. Amma verməyəndə nə olar, əməkdar artist adım var, bu, mənə bəsdir. Aza qane olan xoşbəxt adamdır, bunu dahilər deyib.

***- Özünüzü xoşbəxt sənətkar sayırsınız?***

- Bəli. Mənim heç vaxt tamahım olmayıb. Ancaq elə sənətkarlar var ki, xalq artisti adını almayıb deyə, ölüblər, inanırsan? İndi mənimçün ad çəkmək ayıbdır. Ancaq belələrini tanıyıram. Hökmən deyil xalq artisti olasan. Özü də əməkdar artist adını mən sovet hökumətinin dövründə almışam. O vaxt ad almaq çətin idi. Mən ki, bu adı almışam, böyük şeydir.

***- Səhnə fəaliyyətinizin yaşı nə qədərdir?***

- Düz 40 il. Ancaq mən institutu qurtarmamış Quba teatrında da iki il işləmişəm.

***- Bakıdan bura köçəndən sonra burada davam etmək istəmədiniz ki?***

- Artıq Qubada teatr yox idi. Quba teatrı 1961-ci ildən bağlanıb. Xruşşov belə xırda teatrların dotasiyasını kəsdi və bağladı.

***- Bəs siz heç təşəbbüs göstərmədiniz ki, gəncləri cəlb eləyib burada yenidən teatrı bərpa edəsiniz?***

- O təşəbbüs, həvəs gənclikdə olur. Xan Şuşinskiyə deyirlər ki, gəl bir “Bayatı-Şiraz” oxu, səsini yazdıraq, Qızıl Fondda yoxdur. Deyib ki, a kişi, səsim var, həvəsim yoxdur. Sənəti yaşatmaq, göstərmək üçün canda həvəs olmalıdır. Mən burda tək yaşayırdım, yoldaşım da rəhmətə getmişdi. Quba Mədəniyyət Şöbəsinin müdiri gəldi ki, bəs rayon rəhbərliyinin də istəyi var, gəlin, Qubada xalq teatrı yaradaq. Dedi iki qız ali təhsil alıb, qayıdıb, onları işə götürmüşük, ancaq heç nə bacarmırlar. Dedim, yaxşı...Hazırlıqlara başladıq. Xanımlardan birindən yaxşı aktrisa çıxardı. Dedim, bax, sənə bu rolu verirəm, belə, elə...Yəni Bakıdan komissiya gəlib baxsın, Qubada xalq teatrının bərpasına razılıq verilsin. Mən də yaşlı adamam, hərdən gəlib göstəriş verərəm. Səhər getdim bir yığışaq, avtovağzalda qız yaxınlaşdı ki, mənə icazə ver, bu gün gələ bilməyəcəyəm, toya gedirəm. Mən də getdim direktora dedim ki, bu iş alınan deyil. Firəngiz xanım vardı, indi bilmirəm hardadır, uzun illər mədəniyyət sahəsində çalışıb, heç bir ad da verilməyib. Mən bu işlərə başlayanda dedi, Məcnun, adını batırma, burda mümkün deyil. Sonra oturub fikirləşdim ki, indi camaat operaya gəlmir, lap burada xalq teatrı yaratdım, kimdir gələn?

***- Bəs niyə gəlmirlər? Bu gün tamaşaçı niyə teatrdan, operadan iraq düşüb? Yəqin teatr xadimi olaraq bu suallara cavab axtarıbsınız...***

- *(Deyəsən, sualı gözləyirmiş)* Həəə... Bunun ciddi səbəbləri, kökləri var. Bu işlə məşğul olan böyük adamlar, nazir, ondan da böyük var ki, mədəniyyət işinə baxır - mən açıq danışıram, heç kəsdən də qorxmuram - ad çəkməyəcəyəm, hamı bilir, onlar bu işlərlə məşğul olmalıdır, ancaq məşğul olmurlar. Onlar başqa işlə məşğuldurlar. Düzdür, daşıdıqları vəzifənin pulunu dövlətdən alırlar, ancaq o işlə məşul olmurlar. O arvad paltarı geyinib səhnəyə çıxanlar var ha...İndiki teatrdakı vəziyyəti araşdıran bir kişi lazımdır ölkədə. Bu kişilər var, ancaq bu kişilər başını aşağı salıb öz işləri ilə məşğuldurlar, belə işlərə baxmırlar. Daha teatrın qayğısına qalan yoxdur. Sənin, mənim, onun qızmarğı ilə deyil. Amaliya xanım deyir teatrları bu günə qoyan məmurlardır. Düz də deyir. Amaliya xanım çox işgüzar, böyük sənətkardır. İşin kökündən yapışmaq lazımdır. Mən şəxsən bunu bir şikayətçi kimi bütün respublikaya deyirəm. Məsələn, “Mədəniyyət” kanalı açılıb. Onsuz da bütün televiziyalar mədəniyyətlə məşğuldur da, hamı çalıb-oxuyur, bunlar mədəniyyətlidir? Sənin ölkən aqrar ölkədir, kənd təsərrüfatı ölkəsidir, sən kənd təsərrüfatına aid bir kanal aç! O kanalda göstərsinlər ki, üzümü necə yetişdirirlər, armudu, almanı necə calaq edirlər, taxılçılığı necə inkişaf etdirirlər, hansı gübrəni verirlər? Türkiyədə ayrıca belə bir kanal var. Mədəniyyət kanalı bizim nəyimizə lazımdır? Onsuz da bütün kanallar çalıb, oxuyur, oynayır. Məgər bu həyat ancaq çalıb-oxumaqdan ibarətdir? İnkişaf kədərdədir, sevincdə inkişaf olmaz! Sevinc ötəridir, ha-ha-ha, güldün, oynadın, oxudun, oynadın, getdi. Ancaq kədər insanı əbədi düşündürür. Kədərli yazıçılar, rejissorlar...Mehdi Məmmədov heç vaxt gülmürdü, mən onu bir-iki dəfə gülən gördüm. O, mənim müəllimim olub, uzun müddət mənə rejissorluq edib. Kədərliydi, savadlı idi, teatr üçün nə etmək lazımdır, bilirdi. Mehdi Hüseyn böyük yazıçı idi, kitabdan oxumuşam, yazırlar ki, onu güldürmək mümkün olmurdu. Çünki savadlı idi, dünyanın kədərini daşıyırdı, yaradırdı. Elə çal, oyna, çal, oyna...

***- Amma bu da bir reallıqdır ki, biz gülüşə tamarzı xalqlarıq. Hətta tamaşaçı tamaşaya gedəndə də ürəkdən gülə bilmir. Sizcə, niyə? Yaxşı ssenarimi yoxdur, yoxsa problem aktyordadır?***

- Elədir. Tamaşaçı gedir, görür yanındakılar gülür, o da yalandan gülür. Həm ssenari zəifdir, həm də yaxşı aktyor yoxdur. Aktyor yetişdirən sənətkarlar getdi...

***- Köhnə tamaşalarınıza baxırsınızmı?***

- Göstərəndə hə, baxıram. Əslində mən elə şeyi sevmirəm. Məsələn, təkrar tamaşalar verirdilər, yoldaşım rəhmətlik deyirdi otur, bax da. Mən qaçırdım mətbəxə. Deyirdim mən sevmirəm. “Qatarda”nı Özbəkistan və Gürcüstanda tamaşaya qoydular. Mən ona gürcücə baxmışam. Ancaq “Məşədi İbad”a nə qədər baxarlar? 300 dəfə verilib, bir-iki dəfə baxdın, bəsdir də. Oğlum, get, kitab oxu da! Vaxt qızıldır axı...

***- Məcnun müəllim, bütün günü evdəsiniz. Bəs televizorda nəyə baxırsınız?***

- Mən futbola baxıram. Hərdən də siyasi vəziyyəti bilmək üçün son xəbərləri izləyirəm. Axır zamanlar ona da baxmıram, ancaq futbola baxıram. “İdman” kanalı hər şənbə-bazar ingilis, ispan komandalarının oyunlarını göstərir. Elə bu saat iki ingilis komandası oynayırdı, ən irəlidə gedən komanda uduzurdu, siz gəldiniz, durdum. Səsi xoşlamıram, ona görə də televizorun səsini alıram, oturub baxıram.

***- Bu tənhalıq sizi darıxdırmır ki?***

- Öyrəşmişəm də.

***- Neçə ildir belə yaşayırsınız?***

- 17 ildir təkəm. Amma mənim 2 oğlum, 1 qızım, 7 nəvəm, 2 nəticəm var. Sabah yox, birisi gün nəvəmin biri gələcək, bu evi də onun adına keçirmişəm. Hasar çəkdirirəm, gəlib işlərə rəhbərlik edəcək.

**P.S.** *Müsahibənin tam mətnini musavat.com-dan oxuya bilərsiniz.*

**❑ Elşad PAŞASOY**
**Foto müəllifindir**



# QMİ ilə Səudiyyə arasında konflikt - Həcc ziyarəti kvotasının gizlinləri

## Azərbaycandan İslamın əsas ziyarəti üçün yerlər son 7 ildə 6 dəfə azalıb, qərar Bakıdan, yoxsa ər-Riyaddan verilib?

**Ötən həftə diqqət çəkməyən xəbərlərdən biri də Həcc kvotasının növbəti dəfə azaldılması oldu. Məlum oldu ki, bu il Azərbaycandan Həcc ziyarətinə yalnız 1040 nəfər gedə biləcək. Qafqaz Müsəlmanları İdarəsindən (QMİ) APA-ya verilən məlumata görə, zəvvarlar üçün ayrılan 1040 yerdən 600-ü nisbətən şəraiti zəif olan ziyarət xidməti üçün, 440-ı isə VİP ziyarət xidməti üçün nəzərdə tutulur.**

Həcc qiymətləri isə bu il daha yaxşı şəraitli hotellərdə qalmaq, bahalı yeməklərlə təmin olunmaq, 4 nəfərlik otaqlarda yerləşmək üçün 4500 dollar, nisbətən ucuz, 6 nəfərlik otaqlarda qalmaq üçün isə 3500 dollar müəyyən olunub.

Ancaq əlaqədar qurumlar Həcc kvotasının endirilmə səbəbini açıqlamayıb. Yalnız bildirilir ki, ayrılan yerlərdən artıq müraciət olduğu halda, əlavə yerlərin alınması mümkün ola bilər. Bu açıqlamada sanki kvotanın satın alındığı görüntüsü yaranır. Lakin hələlik belə bir şeyin olmadığı məlumdur, çünki bu günə qədər məlum olan qaydalara əsasən kvota ölkədə müsəlman əhalinin sayına görə müəyyən olunur. Yəni təxminən 10 milyon əhalisi olan ölkə üçün 10 min nəfərlik kvota ayrılır.

Azərbaycanda devalvasiyanın və iqtisadi tənəzzülün fonunda Həcc ziyarəti yerlərinin azalması diqqəti çəkmədi. Çünki indi bu cür məsələlər adətən haqlı olaraq əhalinin maddi imkanları ilə müqayisə olunur. Son aylarda məlum səbəblərdən əhalinin alıcılıq qabiliyyəti kəskin düşdüyü üçün Həccə gedənlərin də sayında azalma gözlənilən idi. Amma bunun üçün kvota endirməyə gərək yox idi. Onsuz da hər il kvotadan artıq, bəzən də əksik sayda insan ziyarətə gedir. QMİ-nin birdən-birə kvotanı 4 dəfə endirməsinin istənilən halda bu idarənin istəyi ilə olmadığı görünür. O zaman kim?



Azərbaycanın Həcc kvotasının azaldılması iki halda mümkündür. Birincisi, bu qərarı hökumət qəbul edə bilər. Yeri gəlmişkən, belə bir addım 2009-cu ildə atılıb. O zaman yayda qəfil məlum oldu ki, Həcc kvotası bir il əvvəlki 6 min nəfərdən 2 minə endirilib. Bu qərarı Şeyxülislam elan etsə də, sonradan məlum oldu ki, hökumətin qərarı olub. Sonrakı illərdə bu rəqəm yenidən tədricən artdı və ildə 4 min nəfərə çatdı. Və yenidən gözlənilmədən 4 dəfə azaldıldı.

Xatırladaq ki, ötən il Məkkədə Həcc ziyarəti zamanı baş verən basabasda yüzlərlə insan həlak oldu. Mümkündür ki, Azərbaycan hökuməti bu cür faciələrdən qaçmaq üçün Həcc kvotasını azaltsın.

Daha bir ehtimal isə Səudiyyə Ərəbistanının kvotanı azaltmış olmasıdır. Düzdür, zahirdən bunun üçün səbəb yoxdur, zəvvarların çox olması Ərəbistan üçün daha çox gəlir deməkdir. Amma ötənilki faciənin yenidən təkrarlanması ehtimalı zəvvar sayı narahatlığına səbəb ola bilər. Daha bir ehtimal isə son illərdə bəzi səbəblərdən QMİ ilə Səudiyyə Ərəbistanı arasında münasibətlərdə soyuqluğun yaranmasıdır. Hətta bir ara QMİ rəhbərliyi ilə krallığın rəhbər şəxsləri arasında Həcc məsələləri ilə bağlı anlaşılmazlığın olduğu haqda məlumatlar mediaya sızmışdı. Belə görünür, bu məlumatların müəyyən əsası olub. Xüsusən də son illərdə Şeyxin Suriya mövzusunda, eləcə də Azərbaycanda radikal dindarlığın yayılması ilə bağlı sərt açıqlamalarının bəzi ölkələrdə narazılıqla qarşılandığı bildirilir. Həcc kvotasının məhz bu mövzuların təsiri ilə endirilməsi ehtimalı yüksəkdir.

Ortada bir həqiqət var ki, bu hadisə QMİ-nin maraqlarına uyğun deyil. Bu qərar başqa yerlərdə alınıb və QMİ bu qərara riayət etməyə məcbur olub. Yəqin ki, yaxın zamanlarda Azərbaycanda Həcc "ixtisarlarının" əsl səbəbi bilinəcək.

❑ **KƏNAN**

# Hafiz Hacıyev beynəlxalq terrorçu elan oluna bilər...

## Partiya sədri həyəcan təbili çaldı: "Həyatım təhlükədədir..."

**MMP sədri Hafiz Hacıyevin son açıqlamaları gündəmə "bomba" kimi düşüb. Əvvəlcə erməni qadınlardan övladlarının olduğunu deyən partiya sədri ardınca Ermənistandakı Atom Elektrik Stansiyasını, metro stansiyalarını partladacağı barədə fikirlər səsləndirib.**

Hacıyevin dedikləri ictimaiyyət arasında heç də birmənalı qarşılanmayıb. Çoxları onun söylədiklərini Azərbaycan üçün təhlükə hesab edir. Bildirilir ki, ermənilər onun bu fikirlərindən istifadə edib, ölkəmiz əleyhinə kampaniya apara bilərlər. Çünki partiya sədrinin açıqlamalarından sonra düşmən ölkədə hər hansı bir hadisə baş verərsə, ilk növbədə onun dedikləri diqqətə alınacaq. Təsadüfi deyil ki, onun söylədiklərini rus və erməni mətbuatı əsas xəbərlərdən birinə çevirib. Özü də prezidentliyə 3 dəfə namizəd olan şəxs kimi...

H.Hacıyevin fikirlərində cinayət tərkibinin olduğunu düşünənlər də çoxluq təşkil edirlər. Buna əsaslanıb onun beynəlxalq terrorçu elan olunacağı və İnterpolun axtarışına verilə biləcəyi də vurğulanır. Bundan əlavə, məsələyə belə də yanaşılır ki, ermənilər tərəfindən Hacıyevin həyatına təhlükə ola bilər.

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı Hacıyevin fikirlərinin Azərbaycanın imicinə zərbə vurduğu qənaətindədir:** "Ermənilər bu şəxsin partiya sədri, eləcə də prezidentliyə keçmiş namizəd olduğunu biləndən sonra onu yox, Azərbaycanı terrorizmdə günahlandıra bilərlər. Ermənistandakı AES-i hər hansı bir dövlət, terror qruplaşması partladıb, ölkəmizin üzərinə atarlar. Onsuz da nüfuzumuza zərbə vurmaq üçün əllərindən gələni edirlər. Hafiz Hacıyev özünü partiya sədrinə yox, satirik rola girən aktyora bənzədir. Zarafat edirsə, belə zarafat olmaz. Düşünmədən dediyi sözlər Azərbaycanın əleyhinə yönələ bilər. Çünki o, törətdiyi hansısa terror hadisəsini üzərinə götürməlidir. Onun partiyasını da suçlaya bilərlər. Hacıyevin etik qaydalara sığmayan fikirləri də var. Məsələn, erməni qadınlardan uşaqlarının olduğunu deyir. Onun savadsız, gülməli çıxışlarını dinləməkdənsə, bununla bağlı konkret iş görülməlidir. Əks halda, bizim üçün mənfi nəticələri gözlənilir. Çünki beynəlxalq təşkilatlardan hücumlar ola bilər. Buna görə də mətbuatımızda elə yazılar getməlidir ki, ermənilər Hafiz Hacıyevin sözlərinin mənasız olduğunu dərk etsinlər. Bu fikirlər onun özünə məxsusdur. Çünki Azərbaycan heç vaxt terrorla məşğul olmayıb. Azərbaycanın müvafiq qurumları Hacıyevi bu məsələdə başa salmalıdır. Belə çağırışlarına görə ola bilsin ki, Hafiz Hacıyevi hansısa ölkə ərazisinə buraxmasın. Ermənistanın özü də ondan şikayət edə bilər. Onun barəsində məhkəməyə də müraciət oluna bilər. Burada, sadəcə, təəssüf doğuran odur ki, ölkəmizin adı hallanır".


Hafiz Hacıyev

**Mirvari Qəhrəmanlı:** "Onun barəsində məhkəməyə müraciət oluna bilər"

**H.Hacıyev isə "Yeni Müsavat"a açıqlamasında həyatının təhlükədə olduğunu söylədi:** "Verdiyim açıqlamalar həqiqəti əks etdirir. Ermənilər bilməlidir ki, onların daim içərilərində olmuşuq, qızları ilə oturub-durmuşuq. Heç bir fantaziya yoxdur. Ermənilərə qarşı ideoloji müharibə aparırıq. Həyatıma olan təhlükəni hiss edirəm. Heç bir addımımı düşünməmiş şəkildə atmıram. Faktlarla çıxış edirəm. Buna görə təhqir olunuram, naməlum nömrələrdən zənglər gəlir. Hər an həyatım təhlükədədir. Amma nə etmək olar ki, Azərbaycan hakimiyyətində ermənilərlə qohum olanlar var. Hətta bəzi məmur övladları var ki, erməni dayıları ilə fəxr edirlər, onlarla Moskva və digər şəhərlərdə görüşürlər. Xalqı talan edib, milyardlar qazanıb, ermənilərə yedizdirirlər. 30 minə qədər erməni gəlinimiz var. Bunları dedikcə, mənə təşəkkür etməyəcəklər. Hansı varlı məmurun övladı, yaxud qohumu şəhid olub? Bu suala cavab verən şəxsin qarşısında ömür boyu qul olaram. Elə məmurlar tanıyıram ki, övladlarının bir ayağı Ermənistandadır. Amma mən xaricə gedəndə qorxuram, həyat yaşamıram. Təsəvvür edin ki, kirayədə yaşayıram, son fikirlərimdən sonra məni kirayədən çıxarırlar. Hər ay 600 manat kirayə haqqı verirəm. Ev sahibinə deyirəm ki, bəlkə sənin də ermənilərlə qohumluğun var, susur. Məmurlardan mənə təhdidlər gəlir ki, erməni məsələsini gündəmə gətirsən, səni öldürəcəyik. Mən asan can verməyəcəm. Erməni ilə qohumluğu olan məmurlar istefa verməlidir. Növbəti seçkilərdə prezident seçilsəm, həmin məmurlara qan qusduracam. Onları təpəsi üstə asıb, ermənilərə verdikləri pulları, Ermənistanda tikdikləri villaları geri istəyəcəm".

❑ **Cavanşir ABBASLI**

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bu dəfə BMT Təhlükəsizlik Şurasını tənqid etməklə gündəmə gəlib. O, dünyada 1.7 milyard əhalisi olan İslam dünyasının BMT Təhlükəsizlik Şurasının daimi üzvləri arasında yer almamasını qınayıb: "Din olaraq yalnız xristianların meydana gətirdiyi bir şura var. 1,7 milyon müsəlmanın olduğu bu dünyada orada heç bir müsəlman ölkə yoxdur. Düzdür, müvəqqəti şura üzvlərinin içində müsəlman üzvlər var, amma onların heç birinin səlahiyyəti yoxdur. Onların mövqeyi həlledici deyil".**





# BMT TŞ-ni "xristian şurası" adlandıran Ərdoğan haqlıdırmı?

## **Hikmət Hacızadə:** "BMT Təhlükəsizlik Şurasında hindistanlılar da yoxdur, onlar da bir milyarddır..."

**Ərdoğan bu vəziyyətə laqeyd qalmayacaqlarını və tənqidlərinə davam etməklə, tez-gec 5 ölkə xaricindəki 190 ölkənin də orada təmsilçiliyini təmin edəcəyini bildirib. BMT Təhlükəsizlik Şurasının nizamnamə tələblərinə də kəskin münasibətini sərgiləyən Ərdoğan onu ədalətsiz adlandırıb:** "İndi 5 daimi üzvdən biri Suriya məsələsində "yox" desə, heç bir addım atılmayacaq. Belə bir ədalətmi olar? Siz belə bir Təhlükəsizlik Şurasından ədalət gözləyə bilərsinizmi?"

Bəs görəsən, həqiqətənmi BMT Təhlükəsizlik Şurası xristian təəssübkeşliyi əsasında fəaliyyət göstərir? Ərdoğan söylədiklərində nə qədər haqlıdır?

**Politoloq Qabil Hüseynli** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, BMT-nin dərin struktur islahatlarına ehtiyacı var: "Əgər bu təşkilat dünyada sülhü, əmin-amanlığı qoruyursa, orada bütün qitələrin, fərqli sivilizasiyaların nümayəndələri olmalıdır. BMT-nin indiki formatında dünyada sülhün, təhlükəsizliyin təmin olunmasında töhfə verəcəyini söyləmək çox çətindir. Çünki orada BMT Təhlükəsizlik Şurasının üzvü olan 5 dövlətin siyasi mövqeyi var. Onlar istədikləri vaxt istədikləri qərara qarşı veto hüququndan istifadə edə bilirlər. Bu baxımdan nə BMT Təhlükəsizlik Şurasının verdiyi qətnamələri icra edirlər, nə onun icrasına nəzarət edirlər. Həqiqətən də müsəlman dünyasının maraqları orada təmin edilməyib.

Doğrudur, bəzən Təhlükəsizlik Şurasına müvəqqəti üzvlər seçirlər, ancaq bu üzvlərin rolu o qədər də əhəmiyyətli deyil. Bunu Almaniya da, Yaponiya da səsləndirir. Ərdoğanın fikirlərində yeganə çatışmayan cəhət odur ki, bunu bir qədər diplomatik şəkildə söyləmək lazımdır. Bu sözləri təhdidlə söyləməyə ehtiyac yoxdur. Ancaq hər halda, dedikləri həqiqətə uyğundur. BMT-də bütün qitələrin nümayəndələrinin iştirakı təmin edilməlidir".

**Politoloqun fikrincə, xristian dövlətlərinin bu təşkilatdakı həlledici rolu əllərindən alınmalıdır:** "Necə olur ki, Rusiya Təhlükəsizlik Şurasının istədiyi qərarına veto qoya bilir? Elə bir mexanizm tapılmalıdır ki, orada hər hansı bir dövlətin at oynatmaq hüququ olmasın".

**Politoloq Hikmət Hacızadə isə bu məsələdə xristian təəssübkeşliyindən söhbət getmədiyini qeyd etdi:** "Ərdoğan belə iddialar ortaya atanda, gərək konkret faktlar ortaya qoysun. BMT Təhlükəsizlik Şurasında müsəlmanlar yoxdursa, hindistanlılar da yoxdur, onlar da bir milyarddır. Bu təşkilat İkinci Dünya müharibəsindən sonra böyük sivilizasiyalı bir kompromislə yaranıb. İndiki dövlətlərin əksəriyyəti o zaman yox idi. Orada önəmli olan səs vermək hüququ deyil. Dövlət gərək müəyyən iqtisadi, siyasi, hərbi gücə sahib olsun ki, Təhlükəsizlik Şurasına üzv ola bilsin. Buna görə də oraya həmin 5 ölkə düşdü. O zaman mübahisə edirdilər ki, Rusiya və Çini qəbul edək, ya yox. Sonra Ruzvelt həm Rusiyanı, həm də Çini üzvlüyə qəbul etdi. Əlbəttə, yaxşı olardı orada bütün millətlərin, xalqların nümayəndələri təmsil olunaydı. Ancaq bu, texniki cəhətdən mümkün deyil. Axı müsəlmanlar bir deyil, İran müsəlmanları başqadır, Türkiyə müsəlmanları başqa. Bəşər Əsəd də müsəlmandır. Ona görə də orada din yox, siyasi mənsubiyyət, iqtisadi güc, mədəniyyət rol oynayır. Əgər Ərdoğan çox narahatdırsa, konkret nümunələr gətirsin və biz də onu müzakirə edək".

**H.Hacızadə BMT Təhlükəsizlik Şurasında xristian təəssübkeşliyinin olması iddiasını əsassız hesab etdi:** "Orada konkret milli maraqlar rol oynayır. Mən xristian təəssübkeşliyi haqqında faktlar görməmişəm. Müsəlmanlar daha çox yəhudi təəssübkeşliyi haqqında danışırlar ki, Qüdsü bizə vermədilər. Ancaq BMT-nin xeyli qanunları var ki, Fələstinə müstəqillik verilsin, Qüds iki yerə bölünsün. Ancaq onlar yerinə yetirilmir. Buna dini təəssübkeşlik yox, iqtisadi güclər, maraqlar imkan vermir. Onu da qeyd etmək lazımdır ki, BMT-nin qərarları dərhal icra olunmur. Əgər ona qarşı çıxan dövlət varsa, hətta onlar səs versələr də, həyata keçmir. Dağlıq Qarabağla bağlı BMT-nin 4 qətnaməsi var, ancaq icra olunmur.

BMT Təhlükəsizlik Şurasına üzvlük üstündə daim mübahisə gedir. Almaniya kimi nəhəng bir ölkə ortalıqda qalıb. BMT-yə daxil olmaqdansa, Ərdoğan Türkiyəni inkişaf etdirsin, demokratik olsun. Son zamanlar onun özünü avtoritar aparması məni çox narahat edir".

❑ **Nərgiz LİFTİYEVA**

# Suriyada yenidən qırğın düşür

## Hökumət və müxaliflər Hələbi, kürdlər Raqqanı, İŞİD Deyr əz-Zoru ələ keçirməyə çalışır

**Suriyada müharibə yenidən alovlanıb. Formal olaraq tərəflər arasında atəşkəs imzalansa da, faktiki olaraq atəşkəsə riayət edən yoxdur. Tərəflər hər fürsətdə bir-birinə hücum edir. Hətta vəziyyət o həddə çatıb ki, atəşkəs prosesini himayəsinə alan ABŞ və Rusiya da vəziyyəti nəzarətə ala bilmir. Son olaraq Lavrov və Kerri növbəti dəfə atəşkəsi qorumaqla bağlı razılaşıb. Ancaq görünən odur ki, vəziyyət heç də göründüyü kimi deyil.**



Ötən həftə müxalif radikal qruplar Suriyanın Hələb şəhərinin cənubunda yerləşən Xan Tuman bölgəsindəki hökumət qüvvələrinə hücum edib. Hücum əməliyyatı atəşkəsin qüvvədə olduğu zaman baş verib və hazırlıqsız yaxalanan hökumət qüvvələri, o cümlədən İran hərbçiləri ağır itki verib.

İranlılar hadisəyə görə atəşkəsin ikinci cavabdeh tərəfi olan ABŞ-ı günahkar bilirlər. Çünki Rusiya ilə əldə olunmuş razılığa əsasən müxaliflər tərəfdən atəşkəsi Amerika, hökumət tərəfdən isə Rusiya təmin etməli idi. Ancaq göründüyü kimi, amerikalıların təminatı işə yaramayıb və atəşkəslə bərabər qarşılıqlı etimad da zədələnib.

Suriya hökuməti bu vəziyyəti Amerikanın müxaliflərə ya nəzarət edə bilmədiyi, ya da bilərəkdən bu vəziyyəti yaratdığını düşünür. Bundan başqa, daha bir anlaşılmazlıq terror siyahısı ilə bağlıdır. Məlum olub ki, ABŞ və müttəfiqləri Suriyada yalnız "ən-Nusra" və İŞİD-i terror təşkilatı kimi tanımaqda maraqlıdır. Suriya hökuməti və Rusiya isə siyahının daha da böyüdülməsi, digər radikal qrupların, o cümlədən "Əhrar əş-Şam" *("Şamın Azadlığı")* və "Fəth Ordusu" kimi qrupların terrorçu kimi tanınmasını istəyir. Hələlik bu mövzuda da anlaşma yoxdur. Və son olaraq Hələbdə hökumət qüvvələrinə hücumu məhz Amerikanın terrorçu kimi tanımaq istəmədiyi digər qruplar və "ən-Nusra" birgə həyata keçirib. Bu isə Dəməşqdə terror siyahısını daha da böyütmək tələbini haqlı çıxardır.

Amma məsələnin mürəkkəbliyi heç də bunlarla bitmir. Ötən gün məlum olub ki, Suriyanın şimalında ABŞ-ın dəstəklədiyi kürdlər tərəfindən qurulmuş və azlıq qrupların birləşdiyi Demokratik Suriya Qüvvələri İŞİD-in "paytaxtı" Raqqa şəhərinə hücuma hazırlaşır. 80 faizi kürd YPG silahlılarından ibarət olan Demokratik Suriya Qüvvələri hazırda Raqqa ətrafına ordu yığır. Məlum olub ki, silahlılar üç tərəfdən Raqqaya hücum edəcək.

O da məlum olub ki, ABŞ və koalisiya ordusu Raqqa əməliyyatına havadan və raket atəşi ilə dəstək verəcək. Məsələ ondadır ki, ötən ay Palmira şəhərinin İŞİD-dən alınmasından sonra Raqqanın yolu faktiki olaraq açılıb. Bu şəhərin alınması isə İŞİD-ə böyük bir zərbə olacaq, çünki qruplaşma buranı özünün əsas mərkəzi hesab edir. Hazırda silahlı qruplar Raqqaya 22 ilə 40 km məsafədə yerləşir.

Görünən odur ki, Amerika hərbi komandanlığı Suriya ordusundan əvvəl kürdlərin Raqqanı almasını və bölgədə təsirli gücə çevrilməsini istəyir. Çünki məsələ ondadır ki, Suriyada bağlanan atəşkəs anlaşmasına İŞİD daxil deyil, amerikalılar atəşkəsdən istifadə edib kürdlərin əli ilə İŞİD Suriyada *(kürdlərin əli ilə)* zəiflətmək, daha sonra 3-lü tərəfləri atəşkəsə məcbur etmək istəyir. Bunun üçün Hələbdəki atəşkəsin pozulması və hökumət qüvvələrinin Hələb ətrafında ilişib qalması əslində kürdlərin hazırkı taktikasına xidmət edir. Çünki Bəşər Əsəd üçün hər bir halda Hələb Raqqadan daha mühümdür. Beləliklə, vəziyyətin bu cür davam etməsi nəticəsində kürdlər Suriyanın şimalında daha əvvəl İŞİD-in nəzarətində olan bölgələrdə möhkəmlənəcək, İŞİD kimi hər iki tərəfin terrorçu hesab etdiyi qüvvə sıradan çıxacaq və nəticədə hökumət və digər islamçı qruplar kürdlərlə danışıqlar masasında oturacaqlar. Eyni zamanda İŞİD-in Raqqanı rahatlıqla təslim etməsi də inandırıcı deyil. Son məlumatlara görə, qruplaşma Deyr əz-Zor şəhərinə hücum edib. Bununla da diqqəti Raqqadan yayındırmaq, əməliyyat cəbhəsini daha da genişləndirməyə çalışır.

Son zamanlar İran generallarının Hələb ətrafında görünməsi Bəşər Əsədin Hələbi tez bir zamanda geri alması və daha sonra Raqqaya hücum etməyə hazırlaşdığına işarədir. Bu isə vəziyyətin getdikcə daha da gərginləşəcəyi, savaşın şiddətlənəcəyi mənasına gəlir.

❑ **Kənan RÖVŞƏNOĞLU**

# "Sovetski"də hələ də evlərindən çıxmaq istəməyən sakinlər var

## Ərazidə əksər evlər sökülüb, amma bəzi vətəndaşlar "razılığımız olmasa, mülkümüzə kimsə toxuna bilməz" deyirlər











**Bakının "Sovetski" adlanan məhəlləsində söküntü işləri davam etdirilir. Ərazidə işləyən fəhlələrin sözlərinə görə, işlər qış aylarında sürətli aparılsa da, bir aydır ki, bu temp aşağı düşüb.**

Hazırda Mirzağa Əliyev, Dilarə Əliyeva, Süleyman Rəhimov Mustafa Sübhi, Zülfi Adıgözəlov, Abdulla Şaiq küçələrindəki evlər demək olar ki, tamamilə sökülüb. Ərazidə işləyən fəhlələr musavat.com-a bildirdilər ki, aprel ayının ilk günlərindən etibarən söküntü işləri ləng getsə də, bu, işlərin tam dayandırılması mənasına gəlmir.

**Ərazidə əksər evlər sökülsə də, hələ evini tərk etməyib, orada yaşayan sakinlərə rast gəlmək olur. Sakinlər musavat.com-a bildirdilər ki, ətraf ərazilər söküldüyü üçün burada yaşamaq çətindir. Cəfər adlı sakin bildirdi ki, son günlər kommunal xidmətlərdə də problemlər olur:** "3-4 gün bundan öncə qazımız gəlmirdi. İşıq dirəyini də çıxarıb aparmışdılar. Ona görə işıqlarımız da yanmırdı. Ancaq indi bərpa olunub. Biz evimizi satmaq niyyətində deyilik. Qanuna görə də biz istəmədikcə heç kim öz mülkümüzdən bizi çıxara bilməz. Ancaq görünür, kommunal xətləri kəsirlər ki, biz çıxaq gedək".

**Ruslan Ağayev adlı sakin isə bildirdi ki, bir neçə gündür onların kommunal xətləri özlərini icra hakimiyyətinin nümayəndələri kimi təqdim edən şəxslər tərəfindən kəsilib:** "Özlərini icra hakimiyyətinin nümayəndələri kimi təqdim edən 10-15 adam heç bir sənəd göstərmədən bu işi gördülər. Özü də deyirlər ki, bərpa olunmayacaq".

Ərazidə çalışanlar isə sakinlərdən fərqli olaraq başqa söz söylədilər. Bildirdilər ki, söküntü zamanı bəzən kommunal xətlərə də zərər dəyir. Lakin sonradan həmin xətlər bərpa olunur. Bildirdilər ki, onlar heç kimin evini məcbur sökmürlər. Sökülən yalnız dövlət tərəfindən alınan evlərdir.

Ərazidə olarkən öyrəndik ki, Akademik Milli Dram Teatrının sol tərəfindən "Sovetski"nin içərisinə yol çəkilməsi planlaşdırılır. Bunun üçün isə həmin ərazidə yerləşən "Grand Hotel"in bir hissəsini sökürlər. Hotelin yüksək çinli məmura aid olduğu bildirilir. Redaksiyamıza daxil olan məlumata görə, hotelin hər kvadratmetri üçün 5 min manat kompensasiya ödənilib.

**"Azəravtoyol" ASC-nin mətbuat xidmətinin rəhbəri Anar Nəcəfli musavat.com-a təsdiqlədi ki, "Grand Hotel"in söküldüyü ərazidə yol salınacaq:** "Bu işlər "Sovetski" deyilən ərazinin küçələrinin yenidən qurulması və təmiri çərçivəsində aparılır".

A.Nəcəfli bildirdi ki, söküntü işləri və kompensasiya barəsində Yasamal Rayon İcra Hakimiyyəti məlumatlıdır.

Yasamal Rayon İcra Hakimiyyətindən isə musavat.com-a bildirdilər ki, bu məsələlərə icra hakimiyyətinin təsərrüfat şöbəsi baxır, şöbənin bütün əməkdaşları isə gün ərzində ərazidə olurlar. Eyni zamanda bildirdilər ki, kommunal xətlərdə problemlər olduğu zaman bu, aradan qaldırılır. İcra hakimiyyətinin nümayəndəsi onu da qeyd etdi ki, ərazidə sökülən bütün tikililərin kvadratına 1500 manat ödənilir. Bundan artıq vəsaitdən söhbət gedə bilməz.

❑ **Əli RAİS**
**Fotolar müəllifindir**

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Başsağlığı**

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu, Səidə Qocamanlı, Səadət Bənəniyarlı Turan İnformasiya Agentliyinin direktoru Mehman Əliyevə qardaşı Eldarın vaxtsız vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.**

**Yenilik! Rusiyada təhsil almış və Moskvada müdafiə etmiş**
tibb elmləri namizədi, təcrübəli həkim
**Darya İvanovna**

**varikoz və postvarikoz trofik yaraları, habelə diabetik yaraları özəl metodika ilə, cərrahi müdaxiləsiz müalicə edir.**
**Tel (051) 634-40-01.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

## Bakıda kişi arvadını, sonra özünü öldürdü

**Bakıda ailə faciəsi baş verib. APA-nın məlumatına görə, ər arvadını öldürüb, sonra özü intihar edib. Hadisə paytaxtın Nəsimi rayonu ərazisində, Mir Cəlal küçəsi 35 ünvanında qeydə alınıb.**

Binanın 40-cı mənzilində yaşayan ər və arvad - 48 yaşlı Qurbanov Şahin Məmmədəli oğlu və 38 yaşlı Ağayeva Gülnurə Oktay qızından bir müddət xəbər olmayıb. Gülnurə Ağayevanın İmişlidə anasıgildə olan bacısı dəfələrlə zəng etsə də, nə Gülnurə, nə də əri Şahin Qurbanov zənglərə cavab verib. Narahat olan qadın özünün iş yoldaşlarından bacısıgilin yaşadığı evə getməyi xahiş edib. Onlar mənzilə getsələr də, qapını açan olmayıb. Bundan sonra Fövqəladə Hallar Nazirliyinin (FHN) Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə məlumat verilib. Hadisə yerinə FHN-in Xüsusi Riskli Xilasetmə Xidmətinin xilasediciləri cəlb ediliblər. Onlar beşmərtəbəli binanın dördüncü mərtəbəsindəki mənizilin qapısını sındıraraq, içəri daxil olublar. Xilasedicilər yataq otağında 38 yaşlı Gülnurə Ağayevanın boğazı kəsilmiş meyitini aşkarlayıblar. Daha sonra hamam otağında 48 yaşlı Şahin Qurbanovun asılmış meyiti tapılıb.

Faktla bağlı hüquq-mühafizə orqanlarına məlumat verilib, hadisə yerinə kriminalistlər cəlb edilib. İlkin araşdırmalar zamanı müəyyən edilib ki, Şahin Qurbanov əvvəlcə arvadı Gülnurə Ağayevanın boğazını kəsib, daha sonra isə hamam otağında özünü asıb.

Qonşuların verdiyi məlumata görə, Şahin Qurbanov və Gülnurə Ağayeva cütlüyünün 4 yaşlı qızı var. Bu, Gülnurə Ağayevanın ikinci evliliyidir. O, ilk evliliyindən də 19 yaşlı qız anasıdır.

Hadisənin səbəbləri barədə hələlik heç bir məlumat yoxdur. Amma qonşular Şahin və Gülnurənin sakit ailə olduğunu, evlərindən heç vaxt dava-dalaş səslərinin gəlmədiyini deyirlər.

Faktla bağlı Nəsimi Rayon Prokurorluğunda cinayət işi başlanıb, istintaq gedir.

YENİ MÜSAVAT
N 101 (6422) 11 may 2016

**Dünya ölkələrində olduğu kimi, Azərbaycan şou-biznesində də yolu həbsxanadan keçən çoxlu sayda məşhurlar var. Musavat.com məhbəs həyatı yaşan bir neçə məşhuru təqdim edir.**

# Həbsxanadakı şou-biznes məşhurları

## Onlar narkotikə, qadın alverinə, hətta avtoxuliqanlığa görə "dəmir barmaqlıqlar" arasına düşüblər









Onların arasında bəlkə də ən çox qalmaqala səbəb olan müğənni Maral Tahirqızının həbsi oldu. 2014-cü ildə birdən-birə sosial şəbəkələrdə fenomenə çevrilən, özünü "dünyanın ən zil səsli" müğənnisi hesab edən Maral Tahirqızı tez bir zamanda efirlərdə də populyarlıq qazanmağa başlamışdı. Amma "zil səsi" ilə deyil, gülüş yaradan deyimləri, açıqlamaları ilə... Müğənni elə yenicə şou-biznes aləminə qatılmaq istəyirdi ki, ötən il barəsində cinayət işi açılması haqda xəbərlər yayıldı. Maral Tahirqızı Cinayət Məcəlləsinin 244.1-ci, fahişəliklə məşğul olmaq üçün əxlaqsız yuvalar təşkil etmə, saxlama və ya bu məqsədlər üçün mənzil sahələri verməkdə ittiham olundu. Müğənni dəfələrlə mətbuata açıqlamasında ona qarşı edilən ittihamları təkzib etsə də, məhkəmə barəsində 3 il müddətinə azadlıqdan məhrumetmə qərarı çıxartdı. Beləliklə, müğənni elə məhkəmə zalındaca həbs olundu.

Ötən il Nüşabə Ələsgərli, Nazənin və bir çox məşhur müğənnilərin, bəzi telekanallarında yayımlanan şou tipli verilişlərin prodüseri olan Vəfa Vaqifqızı da qadınları fahişəliyə cəlb etməkdə şübhəli bilinərək, həbs edilmişdi.

Barəsində iki aylıq həbs-qətimkan tədbiri seçilən prodüser xanım sonradan azadlığa buraxılmışdı.

Həbs olunan sənətçi xanımlar siyahısında müğənni Firuzə İbadovanın bacısı, aktrisa Rəhimə İbadovanın da adı var. Belə ki, aktrisa 2006-cı ildə dələduzluqda ittiham olunaraq 9 il azadlıqdan məhrum edilmişdi. Sonradan Bakı Apelyasiya Məhkəməsi cəzanın müddətini 8 ilə endirmişdi və aktrisa 2013-cü ildə azadlığa çıxmışdı. Yayılan məlumatlara görə, aktrisa məhkumluq dövründə həbsxanada fəaliyyət göstərən Dram Dərnəyinin rəhbəri olub.

Həbsi ölkədə böyük rezonans doğuran, hazırda da məhbəs həyatı yaşayan şou aləminin məşhurlarından biri də tanınmış teleaparıcı İlham Mirzəyevdir. Apancı iki il bundan əvvəl dələduzluq ittihamı ilə həbs olunub. İttihama əsasən, teleaparıcı direktoru olduğu "İlhamed" tibb mərkəzində Aynur Əhmədova adlı vətəndaşa cadugərlik yolu ilə yalan vədlər verərək, onun 3000 avro pulunu mənimsəyib. Lakin İ.Mirzəyev ittihamı rədd edir və deyilənlərin yalan olduğunu bildirir. Nərimanov Rayon Məhkəməsi İ.Mirzəyevin 4 il 6 ay müddətinə azadlıqdan məhrum edilməsi barədə hökm çıxarıb. Sonra Bakı Apelyasiya Məhkəməsi onun barəsində olan hökmü dəyişib və cəzanın müddəti 3 il 6 aya endirilib... Bugünlərdə teleaparıcının həbsxanada iflic olduğu barədə xəbərlər yayıldı. Lakin vəkili bu barədə mətbuata açıqlama verərək bildirdi ki, yayılan xəbərlər əsassızdır, teleaparıcının vəziyyəti normaldır və səhhətində heç bir problem yaşanmır.

Reper Elşad Xose isə narkotikdən istifadə etdiyi üçün həbs olunanlar sırasındadır. Belə ki, reper 2010-cu ildə narkotik vasitələrin qanunsuz dövriyyəsinə görə həbs edilib və bir müddət həbsxana həyatı yaşayıb.

Meyxanaçı Bayram Kürdəxanılı da iki il öncə narkotik vasitələrin qanunsuz dövriyyəsinə görə həbs edilib. Məşhur meyxanaçı Mahir Cürət də bugünlərdə Sumqayıt 1-ci polis bölməsinin əməkdaşları tərəfindən saxlanılıb.

Məlumata görə, meyxanaçı narkotik vasitə ilə tutulub. Hazırda onun Kürdəxanı qəsəbəsindəki Penitensiar Xidmətin 1 saylı istintaq təcridxanasında olduğu bildirilir.

Mətbuatda yayılan məlumatlara görə, mərhum xalq artisti İlhamə Quliyevanın oğulluğu Orxan Nadirov da 2008-ci ildə qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya prekursorları hazırlanma, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma ilə ittiham olunaraq barəsində üç aylıq həbs-qətimkan tədbiri seçilib.

Rejissor Aqil M.Quliyev isə 2013-cü ildə dələduzluq ittihamı ilə 1 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. Məlumata görə, rejissorun həbs olunmasına səbəb Marianna Turabova adlı şəxsdən 150 min manat borc alıb, lakin sonradan borcunu geri qaytarmaması olub.

Dələduzluq ittihamı ilə həbs olunanlar arasında vaxtilə populyarlıq qazanan müğənni Vüsal Əliyev də var. 2012-ci ildə müğənninin barəsində 3 il həbs qərarı çıxarılıb. Hazırda azadlıqda olan müğənni şou aləmindən tamamilə kənarlaşıb.

Şou aləmində ən az müddətə həbs olunan isə müğənni-bəstəkar Tunar Rəhmanoğludur. Azəri Günelin qardaşı olan Tunar avtoşluq etdiyi və polisin qanuni tələbinə məhəl qoymadığı üçün 10 sutka həbs və 1 il müddətinə sürücülük hüququndan məhrum olunması cəzası almışdı.

❑ **Xalidə GƏRAY**

# Almaniyada ərəb qaçqınlara qadınla davranış qaydaları öyrədilir

## Miqrantların təcavüzkarlığına bununla son qoyula bilərmi?

**Almaniyada son dönəmdə ölkəyə gələn yüz minlərlə gəncin cəmiyyətə inteqrasiya olunması üçün "flirt kursları"(el arasında buna sevgili olmanın yolları da deyilir-red.") açılıb. Alman hökumətinin dəstəklədiyi kurslarda kişi miqrantlara qadınlara necə yaxınlaşmaq lazım olduğunu öyrədirlər.**




Musavat.com Türkiyə mətbuatına istinadən xəbər verir ki, ilk mərhələdə İngolstadt, Neuburg, Eyştat şəhərlərində açılan kurslarda miqrantlara eyni zamanda bəsit gigiyena qaydaları, gənc qadınlara müraciət formaları da öyrədilir. Kursun ən maraqlı dərsi isə miqrantlara "yox" sözünün həqiqətən də yox mənasına gəlməsi ilə bağlı olub.

Almaniyada yayımlanan "Bayerischer Rundfunk" televiziyası isə kursa baş çəkib və ordan reportaj yayınlayıb. Kursun müəllimlərindən biri, cinsi tərbiyə barədə mühazirə keçən Kristian Zeç bildirib ki, onların vəzifəsi özlərini miqrantlardan qorumaq yox, onlarla birgə yaşamağın yollarını axtarmaqdır. Onun sözlərinə görə, bir çox qaçqın qadınlara necə yaxınlaşacağını bilmir. Müəllimlərin kişi miqrantlara verdiyi əsas məsləhət isə budur: **"Yavaş-yavaş, addım-addım irəliləyin. Çox israrçı olmayın. Qadından xoşunuz gəlir deyə dərhal üstünə hoppanmayın"**.

Hökumətin də dəstək verdiyi belə kursların açılması təsadüfi deyil. Çünki Almaniyada Yeni il axşamında baş verənlər hökuməti bu addıma vadar edib. Belə ki, Köln şəhərində qadınlara hücum edənlərin demək olar hamısı Şimali Afrika və ərəb əsilli miqrantlar olub. Kölndə qadınlardan onlara hücum edildiyi barədə 500-dək ərizə daxil olub. Şikayətlərin 40 faizi seksual təcavüz barədə idi. Həmin vaxt Roma papası bəyan edib ki, Köln hadisələri Avropanın "mərhəmət heysiyyəti"ni sarsıdıb.

Həmin vaxt rəsmi xəbərlərdə də yer almışdı ki, təkcə 2015-ci il ərzində Almaniyaya 1 milyon 100 min qaçqın pənah gətirib. Qadınlara qarşı həm seksual təcavüzün törədilməsi, həm də onların qarət olunması cinayətin Almaniyada indiyədək görünməmiş formasıdır. Qadınlara hücum edənlərdən bəziləri "məni bura Merkel dəvət edib" deyə rişxənd edirmişlər.

Məhz buna etiraz olaraq Antimüsəlman Pegida hərəkatı hay-küylü etiraz yürüşü keçirib və polislə toqquşub. Polis bu "dəst-xəttin" də Şimali Afrikadan gəldiyini düşünür. Ərəb baharı zamanı Qahirədə Təhrir meydanında gedən izdihamlı mitinqlərdə bəzi dəstələr qadınları bir tərəfə çəkərək zorlayırdılar. Bu fənd ərəbcə "təhərrüş cəmea" (seks əyləncəsi) kimi tanınırmış.

Bundan sonra Almaniyanın Bornhaym şəhərində miqrantların istirahət mərkəzinə buraxılmaması ilə bağlı qərar oldu. Münhen şəhərinin hakimiyyət orqanları bildirdilər ki, "bir dəstə suriyalı oğlan istirahət mərkəzinin üzgüçülük hovuzunda 17 yaşlı alman qıza qarşı seksual təcavüzdə bulunub". Almaniya qəzetləri yazırlar ki, bundan sonra yeniyetmələrdən ibarət dəstə həmin qızın 14 yaşlı bacısına qarşı nalayiq hərəkətlərə yol verib. Qızlar hovuzdan qaçaraq polisə zəng ediblər. Bu hadisə ilə əlaqədar ən böyüyünün yaşı 15 olan suriyalılar həbs ediliblər. Məhz bu hadisədən sonra Bornhaym bələdiyyəsi miqrantların istirahət mərkəzinə gəlmələrini qadağan edib.

Bornhaym şəhəri merinin müavini Markus Schnapka deyib ki, qəbul edilmiş qərarlar günahsız qaçqınların xətrinə dəysə də, başqa çıxış yolu yoxdur. Həbs edilmiş üç suriyalı yeniyetmənin yetkinlik yaşına çatmamamışlara aid qanunlarla mühakimə ediləcəyi bildirilib. Berlin də daxil, Almaniyanın bir çox şəhərlərində narahat qadınlar "idman tapançaları" və "xardal qazı baloncuqları" ilə "silahlanırlar".

Hətta Almaniya polisi təcavüz edənlərin kimliyi barədə hər bir informasiyaya 10 min avro mükafat qoymuşdu. Qadınlara təcavüz edənlərin demək olar hamısının Şimali Afrika və ərəb əsilli olduqları müəyyən edilib.

Almaniya kansleri Angela Merkel qaçqınlara münasibətdə "açıq qapılar" siyasətinə görə sərt tənqid edilir.

Sözügedən kurslar barədə də Almaniya mətbuatı birmənalı fikir bildirməyib. Ehtimal olunur ki, bu kursla əks-effekt də verə bilər. Çünki bu kimi hallarda cəzalandırma mexanizmi daha yüksək nəticə verir. Belə ki, ciddi cəzalar, xüsusən də bir neçə sutka azadlıqdan məhrum edilmə, pul cəzasının bu sayaq hadisələrin qarşısının alınmasında effektiv olacağı da səslənən fikirlər arasında idi.

❑ **Sevinc TELMANQIZI**

# YENİ MÜSAVAT

## Son səhifə

N 101 (6422) 11 may 2016




# Qırışları yox edən “ikinci dəri” yaradıldı

Alimlər insanları cavanlaşdırmaq üçün yeni krem icad ediblər. Polimlərdən əldə edilən krem dəriyə sürtüləndə ikinci bir dəri kimi qoruyucu təbəqə təşkil edir. Alimlər qadınların qorxulu röyası olan qırışlara qarşı insan dərisini təqlid edən və dəri üzərində “ikinci bir dəri” təşkil edən krem yaradıb. Harvard Universiteti Tibb Fakültəsi və MİT (Massachusetts ttp://www.sabah.com.tr/haberleri/massachusetts Institute of Technology) araşdırmaçıları tərəfindən hazırlanan polimer krem üzə vurulandan sonra quruyub dəri üzərində elastik bir “ikinci dəri” yaradır. Laboratoriyada silikon və oksigen molekulları tətbiq olunaraq hazırlanan polisiloksan polimerdən hazırlanan krem qırışan dərini toparlamaq və göz altındakı torbaları yox etmək üçün istifadə olunur. Krem kosmetika sahəsindəki istifadəsi ilə yanaşı, dermativ və sədəf xəstəlikləri, dəri narahatçılıqlarının müalicəsində də tətbiq olunur. Bu zaman dərman birbaşa dəriyə verilirsə, onun qorunmasına da yardım edir. Krem suya davamlıdır və 24 saat xarab olmadan dərinin üstündə qala bilir.

Araşdırmaçılar hazırladıqları məhsulu könüllülər üzərində, xüsusən də göz altı torbacıqları, qol və ayaq hissələrində sınaqdan keçirdi və uğurlu nəticələr aldı. Kremin lazımlı icazəsi alınandan sonra yaxın illərdə bazara çıxarılacağı gözlənilir.

# Corc Buşun qızı ilə şahzadə Harri evlənəcək

Britaniya şahzadəsi Harrini ABŞ-ın keçmiş prezidenti Buşun qızı Barbara ilə evləndirmək istəyirlər. Bu ideyanın təşəbbüskarı isə Barbaranın əkiz bacısı Cenna olub. Sonuncunun aparıcı olduğu verilişə qatılan Harri özəl həyatla bağlı bəzi sualları cavablandırıb. NBC kanalında yayımlanan “Today Show” verilişinə qatılan şahzadə daha çox idmanla bağlı suallarla qarşılaşıb. Daha sonra aparıcı insanların ona nə zaman ata olacağı ilə bağlı sual ünvanlayıb-ünvanlamadığını soruşub: “Bilmirəm. Mənim heç sevgilim də yoxdur” deyə, cavab verən şahzadəyə aparıcı Buş öz bacısının namizədliyini təklif edib: “Mənim bacımda da eyni problemlər var. Bəlkə bu barədə efirdən sonra danışaq?”



Müsahibədən sonra isə Barbara jurnalistlərə deyib ki, bundan sonra şahzadəyə “kürəkən” deyə müraciət edəcək.

# Qayğanaq bişirmə videosunu 1.1 milyon nəfər izləyib

Avstraliyada qayğanaq bişirilməsi ilə bağlı videonu 3 gün ərzində 1.1 milyon nəfər izləyib. Lenta.ru saytının xəbərinə görə, bu, adi qayğanaq bişirmə videosu olmayıb. Belə ki, burada ölkənin iqlim qurşağına diqqət çəkilib. Videonun ana xətti isə belə olub ki, Avstraliyada qayğanaq bişirmək üçün plitə və ya elektrik sobasına ehtiyac yoxdur. Video müəllifinin yazdığına görə, yumurta və günəş insanların bu arzusunu yerinə yetirə bilir. Bundan başqa, əlavə edib ki, Avstraliya ərazisində təkcə yayda yox, il uzunu bu üsulla qayğanaq bişirmək mümkündür. Videorolikdə isə öncə ölkənin isti iqlimi, çöllərdə sürünən ilanlar, qızmar günəş nümayiş etdirilir. Ardınca isə daşın üstünə yumurta çırpılır və az keçmədən o, hazır olur. Sonda etiraz əlaməti olaraq qaz plitəsinə atılan stullar, yumurtalar göstərilir. Motiv isə belə olur ki, təbiət bizə hər mənada dostdur, əlavə heç nəyə ehtiyac yoxdur.





# Gəlin baldızlarını məhkəməyə verdi

Türkiyənin İstanbul şəhərində ailə məhkəməsi qəribə şikayətlə üz-üzə qalıb. Özləm Ş. adlı qadın baldızlarından məhkəməyə şikayət edib. Buna səbəb isə iki baldızının davamlı olaraq ona “yad qızı mallarımıza ortaq olacaq” deyərək mənəvi terrorla üz-üzə qoymasıdır. Gəlin bildirib ki, qayınatası olduqca varlı bir kişidir və bu, onun baldızlarını narahat etdiyi üçün evləndiyi gündən bəri bu sözü ona deyirlər. Qadının daha bir şikayəti isə baldızlarının təhqirləri səsləndirəndə ərinin səssiz qalmasıdır. Özləm Ş. həm baldızlarının, həm də ərinin cəzalandırılmasını istəyib. Qadın şikayətində bildirib ki, onlar görücü üsulu ilə evləniblər və bu zaman da qayınatasının varlı olduğunu bilməyib: “Mənim nə günahım var ki, qayınatam varlıdır? Mən bu ailəni seçməmişəm, onlar məni gəlinləri olaraq seçiblər”.




**QOÇ** - Bu təqvimdə ümumi gərginlik sizi müşayiət etsə də, çılğınlıq etməsəniz, günü sakit tərzdə başa vuracaqsınız. Nahardan sonra sizi səbəbsiz münaqişələrə cəlb etmək istəyəcəklər - aldanmayın.

**BUĞA** - Yeni əlaqələr qurmaq istəyirsinizsə, bu təqvimdən maksimum yararlanmağa çalışın. Nüfuzlu adamların köməyindən istifadə edin. Gəlişixoş sözlər işlətməyin. Onsuz da buna heç kim inanmayacaq.

**ƏKİZLƏR** - Ulduzların düzümü maddi çətinliklərinizdən xəbər verir. Çalışın ki, büdcənizdə olan vəsaiti boş məsrəflərə xərcləməyəsiniz. Ailə üzvlərinizin problemlərinə laqeyd yanaşmayın.

**XƏRÇƏNG** - Səhər saatlarında həmkarlarınızla, eləcə də yaxın münasibətdə olduğunuz bəzi kəslərlə mübahisələriniz mümkündür. Dünəndən bəri bürcünüzdə olan Ay sizdən mülayimlik tələb edir.

**ŞİR** - Astroloji göstəricilər potensial imkanlarınızın genişlənəcəyini göstərir. Əgər gücünüzə inanırsınızsa, boş dayanmağa lüzum yoxdur. Axşam saatlarında rəqiblərinizdən qorunmağa çalışın.

**QIZ** - Nə qədər güclü olsanız da, təkbaşına hansısa vəzifənin öhdəsindən gələcəyinizi düşünməyin. Çünki bu təqvimdə sizə dəstək verən olmasa, uğurlu olaylardan uzaq düşə bilərsiniz. Bəxtinizdə pul var.

**TƏRƏZİ** - Göy qübbəsi gün ərzində sizi bir neçə dəfə sınaqdan keçirməyə çalışacaq. Buna hazır olun və hər hansı məişət problemini özünüzə dərd etməyin. Şəxsi işlərinizdə dönüş yaranmaqdadır.

**ƏQRƏB** - İxtiyarınızda olan bu təqvim bürcünüz üçün ən perspektivli zamana çevriləcək. Sizə qarşı hiyləgər mövqedə duranlara əl-qol açmağa macal verməyin. Lazımi məqamlarda sərtlik də göstərin.

**OXATAN** - Olduqca səmərəli bir gün yaşayacaqsınız. Cərəyan edən proseslər bütünlüklə zövqünüzə uyğun olacaq. Amma daxili orqanlarınızı da qorumalısınız. Mümkün qədər ağır fiziki işlərə ara verin.

**OĞLAQ** - Özünüzü nə qədər təmkinli aparsanız, işləriniz də bir o qədər uğurlu gedəcək. Hansısa xırdaçılığa görə hisslərinizi kandara çıxarmayın. Axşama yaxın maraqlı hadisələr gözlənilir.

**SUTÖKƏN** - Böyük dəyişikliklər astanasındasınız. Hətta lazımi məqamda düzgün qərar çıxarsanız, ayın sonuna qədər ovqatınız xoş olacaq. Tərəddüd etdiyiniz bütün məsələləri isə təxirə salmalısınız.

**BALIQLAR** - Adi bir gün yaşayacaqsınız. Hansısa böyük bir iş görəcəyiniz və ya qanqaraçılığı ilə rastlaşacağınız ağlabatan deyil. Bu gün riskdən, eləcə də yeni sövdələşmələrdən uzaq olmalısınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Kəndin adı Kötək, amma nə yerdə var, nə göydə...




Türkiyənin Kars şəhərinin Kağızman bölgəsində yerləşən 140 evi olan Kötək kəndinin qəribə taleyi var. Belə ki, kənd sakinlərinin əllərində cümhuriyyət dönəminə aid sənədləri olmadığı üçün ərazilərini sata və dövlət dəstəyindən yararlana bilmirlər. Kötək kəndinin muxtarı Zəki Büyüktanır deyib ki, kənddə yaşayanların əllərində Osmanlı dönəmindən sənədləri qalıb ki, sonuncular da alqı-satqı və dövlət idarələrindəki sənədləşmədə heç bir əhəmiyyət daşımır: “Osmanlı dönəmindən qalan sənədlər etibarsız sayılarsa, kənd başdan-ayağa xəzinəyə köçürüləcək. Kəndin öndə gedənləri, babalarımız sənəd xəyalı ilə bu dünyadan köçüb gediblər. Biz də bu xəyalla ölmək istəmirik”.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 4.750